QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 188 (5660) **5 oktyabr** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

## "Azərbaycan ilə Vatikan arasında münasibətlər çox yüksək səviyyədədir"

*Prezident İlham Əliyev Müqəddəs Taxt-Tacın Azərbaycandakı apostol nunsisinin etimadnaməsini qəbul edib*



Səh 2

İqtisadiyyatın sənayeləşdirilməsi dövrün tələbidir



3

Heyvanların Beynəlxalq Müdafiəsi Gününə həsr olunan tədbir keçirilib



4

5 Oktyabr Beynəlxalq Müəllimlər Günüdür



5

Hikmət Babaoğlu: "Avropa Parlamenti Teoxarus haqqında ciddi cəza tədbirləri görməlidir"



10

Skripal işi: BBC hərbi şərhçisinin kitabı yeni faktları üzə çıxardı



14

DSX: Xəzər dənizinin Azərbaycana aid hissəsində iki kiloqramdan çox heroin tutulub



12

13

Ermənistan yenidən xaosa sürüklənir



12

Mühacir biznesinin "kralı"



16

Ronaldo ilin sonuna kimi milliyə çağırılmayacaq



səs

www.sesqazeti.az

facebook Ses Media Holding

5 oktyabr 2018-ci il

# "Azərbaycan ilə Vatikan arasında münasibətlər çox yüksək səviyyədədir"

*Prezident İlham Əliyev Müqəddəs Taxt-Tacın Azərbaycandakı apostol nunsisinin etimadnaməsini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də Müqəddəs Taxt-Tacın ölkəmizdəki apostol nunsisi arxiyepiskop Pol Fitzpatrik Rasselin etimadnaməsini qəbul edib. AZƏRTAC xəbər verir ki, arxiyepiskop Pol Fitzpatrik Rassel fəxri qarovul dəstəsinin qarşısından keçdi.***

Pol Fitzpatrik Rassel etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev apostol nunsi ilə söhbət etdi. Dövlətimizin başçısı Azərbaycan ilə Vatikan arasında münasibətlərin çox yüksək səviyyədə olduğunu vurğulayaraq qeyd etdi ki, biz bu günə kimi Roma Papası Fransiskin Azərbaycana səfərinin təəssüratı altındayıq. Prezident İlham Əliyev həmin səfər zamanı Roma Papası Fransisklə keçirdiyi görüşləri, eləcə də özünün Vatikana səfərini məmnunluqla xatırladı. Roma Papası Fransiskin ölkəmizə səfərini tarixi hadisə kimi dəyərləndirən Prezident İlham Əliyev onun ölkəmizdə olarkən Azərbaycanla yaxından tanışlığının, insanlarla təmasda olmasının, eləcə də Azərbaycandakı dini icmaların nümayəndələri ilə görüşünün önəmini qeyd etdi. Prezident İlham Əliyev, eyni zamanda, bu yaxınlarda Roma Papası Fransiskin xanım Mehriban Əliyevanı qəbul etdiyinə görə minnətdarlığını çatdırdı və qeyd etdi ki, bu görüş xanım Mehriban



Əliyevada dərin təəssürat hissi yaradıb. Prezident İlham Əliyev salamlarını və ən xoş arzularını Roma Papası Fransiskə çatdırmağı xahiş etdi. Münasibətlərimizin yaxşı tarixə malik olduğunu və bir çox sahələri əhatə etdiyini deyən Prezident İlham Əliyev bildirdi ki, mədəniyyət sahəsindəki əlaqələrimiz xüsusi əhəmiyyət daşıyır və bu əməkdaşlığımız həm ikitərəfli münasibətlərin yaxşı əlamətidir, eyni zamanda, mədəniyyətlərarası və sivilizasiyalararası qlobal prosesin mühüm elementlərindən biridir. Biz bu əməkdaşlığı yüksək qiymətləndiririk və əminik ki, əlaqələrimiz bundan sonra da möhkəmlənəcək. Dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, arxiyepiskop Pol Fitzpatrik Rassel fəaliyyəti müddətində münasibətlərimizin daha da inkişaf etdirilməsi işinə öz töhfəsini verəcək.

Xoş sözlərə görə minnətdarlığını ifadə edən arxiyepiskop Pol Fitzpatrik Rassel Vatikan ilə Azərbaycan arasında çox yaxşı münasibətlərin mövcud olduğunu vurğuladı. O, bir neçə həftə bundan əvvəl Roma Papası Fransisklə görüşdüyünü qeyd edərək bildirdi ki, həmin görüş zamanı Papa Fransisk Azərbaycana səfərini məmnunluqla xatırladı və eyni zamanda, xoş hisslərlə xanım Mehriban Əliyevanın səfərini gözlədiklərini qeyd etdi.

Dövlətimizin başçısı bildirdi ki, xanım Mehriban Əliyeva Papa Fransisklə görüşünün çox səmimi və dostluq şəraitində keçdiyini deyib. Prezident İlham Əliyev bunun əməkdaşlığımızın yaxşı göstəricisi olduğunu qeyd edərək bildirdi ki, Azərbaycan-Vatikan əlaqələri bir daha dünyaya nümayiş etdirir ki, müxtəlif coğrafi ərazilərdə yaşayan insanlar, fərqli mədəniyyətlərin, ayrı-ayrı dinlərin nümayəndələri bir-biriləri ilə necə uğurla əməkdaşlıq edə və dostluq əlaqələri qura bilərlər.

Arxiyepiskop Pol Fitzpatrik Rassel Prezident İlham Əliyevin fikirlərinə tam şərik olduğunu bildirərək, öz növbəsində, qeyd etdi ki, Vatikan ilə Azərbaycan arasında əlaqələr, sözün əsl mənasında, bir nümunədir.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikasının təhsil işçilərinə "Əməkdar müəllim" fəxri adının verilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikasının şəhər və rayonlarında çoxmənzilli binaların dam örtüklərinin təmiri ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında Fərman imzalayıb.

***

Azərbaycan Prezidenti İlham Əliyev İraq Prezidenti Bərham Salehə təbrik məktubu ünvanlayıb.

***

Azərbaycan Prezidenti İlham Əliyev Maldiv Respublikasının yeni seçilmiş Prezidenti İbrahim Məhəmməd Solihi təbrik edib.

***

Azərbaycan Prezidenti İlham Əliyev "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 iyun tarixli 729 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Azərbaycan Prezidenti İlham Əliyev "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 22 aprel tarixli 744 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Azərbaycan Prezidenti İlham Əliyev "Azərbaycan Respublikasına gələn əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə vizaların rəsmiləşdirilməsi ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 13 sentyabr tarixli 326 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti ilə Tacikistan Respublikasının Milli Təhlükəsizlik Dövlət Komitəsi arasında Tacikistan Respublikasının Milli Təhlükəsizlik Dövlət Komitəsinin Sərhəd Qoşunlarının hərbi qulluqçularının Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin Akademiyasında təhsil almaları haqqında Sazişin təsdiq edilməsi barədə Fərman imzalayıb.

***

Azərbaycan Prezidenti İlham Əliyev "ASAN Viza" sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 oktyabr tarixli 1082 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

# İqtisadiyyatın sənayeləşdirilməsi dövrün tələbidir



***Dayanıqlı inkişafı təmin edilmiş Azərbaycan Respublikasının iqtisadi uğurları beynəlxalq aləmdə böyük rezonansa səbəb olubdur. Həyata keçirilən sosial-iqtisadi inkişaf siyasəti, iqtisadi islahatların dərinləşdirilməsi, mövcud potensialın gücləndirilməsi və ondan istifadənin səmərəliliyinin yüksəldilməsi bu inkişafın təmin olunmasına, qazanılmış uğurların daha da möhkəmləndirilməsinə xidmət edir. Nəticədə, Azərbaycan Respublikası qazandığı iqtisadi uğurları ilə dünya birliyində nüfuzlu söz sahibinə və aparıcı dövlətlərdən birinə çevrilibdir.***

Ökə Prezidentinin hələ 2003-cü ildə andiçmə mərasimində bəyan etdiyi "...Azərbaycan gələcəkdə çox zəngin və qüdrətli bir ölkəyə çevriləcəkdir. Neft strategiyasını davam etdirəcək, qısa müddət ərzində, ölkəmizi hərtərəfli inkişaf etdirəcəyik" kimi praqmatik fikirləri, artıq reallığa çevrilmişdir. Ölkəmizdə dinamik sosial-iqtisadi tərəqqini təmin edən iqtisadi kursun qorunub-saxlanması, onun beynəlxalq arenada nüfuz və mövqelərinin möhkəmləndirilməsi, sosial həyatın bütün sahələrində mütərəqqi islahatların aparılması istiqamətində çox mühüm addımlar atılmışdır. Artıq dünya birliyinə yaxından inteqrasiya olunan Azərbaycan Respublikasındakı bütün proseslər xalqımızın milli mənafelərinə və dövlətçilik prinsiplərinə uyğun olaraq, dünya birliyinin və nüfuzlu beynəlxalq təşkilatların rəyləri nəzərə alınmaqla müasir dövrün tələblərinə uyğun şəkildə qurulmaqdadır".

## Ölkəmizdə aparılan sənayeləşmə siyasəti regionların dinamik inkişafına ciddi təkan verib



### Texnoparkların sənayeləşmədə strateji yeri

Sənayenin inkişafının elmi əsaslar üzərində təmin olunması, texnoparkların sənayeləşmədə strateji layihələr kimi yer alması Prezident İlham Əliyevin təsdiqlədiyi "Azərbaycan 2020 - gələcəyə baxış" İnkişaf Konsepsiyasında da başlıca hədəflər sırasındadır. Bu konsepsiya respublikanın qarşısında duran problemlərin ardıcıl olaraq həyata keçirilməsini nəzərdə tutur. Prezident İlham Əliyev ölkə iqtisadiyyatının sənayeləşməsini sürətləndirmək, Azərbaycanın güclü sənaye mərkəzinə çevrilməsi üçün mövcud potensialdan daha səmərəli istifadə etmək məqsədilə 2014-cü ilin Azərbaycan Respublikasında "Sənaye İli" elan edilməsi haqqında Sərəncam ölkəmizdə sənayenin inkişafına neft sektoru impuls versə də, ümumilikdə, maşınqayırma, metallurgiya, yeyinti və emal müəssisələri, texnologiyalar, kimya kompleksi, mədən və filizçıxarma müəssisələri bu sahənin əhəmiyyəti dərəcədə inkişaf meyilləri ilə müşayiət olunmasına imkan yaradıb və ölkəmizdə aparılan sənayeləşmə siyasəti regionların dinamik inkişafına ciddi təkan verib. Qeyd edək ki, dövlət başçısının müvafiq fərmanları ilə texnoparkların yaradılması, bu texnoparklarda müasir istehsal sahələrinin istifadəyə verilməsi ölkə iqtisadiyyatının gücləndirilməsinə, rəqabətədavamlı və keyfiyyətli məhsulların istehsal edilməsinə geniş imkanlar açıb.

### Sənaye və aqroparklar qeyri-neft sektorunda yeni iş yerlərinin açılmasına şərait yaradır

Bu gün texnoparkların sənayeləşmədə strateji layihələr kimi yer alması Prezident İlham Əliyevin təsdiqlədiyi "Azərbaycan 2020 - gələcəyə baxış" İnkişaf Konsepsiyasında da başlıca hədəflər sırasındadır. Dövlət başçısı çıxışlarında dəfələrlə vurğulayıb ki, ölkəmizin gələcək inkişaf dinamikasını müəyyən edən sənaye sahəsinə daha böyük diqqət verilməlidir: "Texnoparklar, yeni sənaye müəssisələri, ixrac yönümlü sənaye məhsullarının istehsalı, emal müəssisələrinin, böyük sənaye komplekslərinin yaranması - bütün bu işlər ölkəmizin gələcək inkişafını təmin edəcək, neft-qaz amilindən asılılığı daha da azaldacaq və ölkə iqtisadiyyatının dayanıqlı şəkildə inkişafını müəyyən edəcəkdir".

2018-ci ildə isə 3 fəaliyyətə başlayacaq bu müəssisələrdə 900-ə yaxın yeni iş yerinin açılması nəzərdə tutulur. Eyni zamanda, "Yaşıl iqtisadiyyat"ın, təkrar emal sənayesinin inkişafında əhəmiyyətli rola malik olan Balaxanı Sənaye Parkında 23 milyon manat investisiya yatırmaqla tullantıların təkrar emalı üzrə 5 fəaliyyətə başlayan bu müəssisələrdə 400-ə yaxın yeni iş yeri yaradılıb. Gəmiqayırma sahəsində ixtisaslaşmış Qaradağ Sənaye Parkında Bakı Gəmiqayırma Zavodu fəaliyyət göstərir və zavodda yüksək yükgötürmə qabiliyyətinə malik tanker, dəniz-təchizat gəmisi və digər təyinatlı gəmilərin istehsalı həyata keçirilir. Artıq Bakı Gəmiqayırma Zavodunda 10-larla gəmi tikilərək istifadəyə verilib, 60-dan çox gəmi təmiri işləri həyata keçirilib. Hazırda müəssisə tərəfindən BP şirkətinin sifarişi ilə dəyəri 378 milyon ABŞ dolları olan "Xankəndi" sualtı-tikinti gəmisinin və 2 ədəd "Ro-Pax" tipli gəmi bərənin inşası işləri davam etdirilir. Mingəçevir Sənaye Parkında yüngül sənaye məhsulları, o cümlədən, ayaqqabı, tibbi-kosmetika, iplik, boyama, toxuma, tikiş və corab istehsalı üzrə 9 fabrikin yaradılması və 5 mindən çox yeni iş yerinin açılması nəzərdə tutulur. Artıq Sənaye Parkının rezidenti "Mingəçevir Tekstil" MMC 2 növdə ipliklərin istehsalı fabrikinin tikintisinə başlanıb. Regionlarda sahibkarlıq fəaliyyətinin genişləndirilməsi və yerli ehtiyatlardan səmərəli istifadə etməklə sənaye sahələrinin inkişaf etdirilməsi baxımından, sənaye zonalarının yaradılması böyük əhəmiyyət kəsb edir. Ənənəvi sənaye sahələrindən olan xalçaçılığın inkişafı məqsədi ilə "Azərxalça" ASC tərəfindən 10 rayonda xalça müəssisələrinin tikintisinə başlanıb və artıq Füzuli rayonunun Horadiz qəsəbəsində xalça müəssisəsi fəaliyyət göstərir. Bu müəssisələr işə başladıqdan sonra ümumilikdə 1600 yeni iş yerinin açılması təmin ediləcək.

Prezident İlham Əliyevin Sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasda dövlətimizin başçısı vurğulayıb ki, sənaye parklarında rezidentlərin sayı 50-yə yaxınlaşır: "Sənaye parklarının yaradılması da öz səmərəliliyini göstərmişdir. Əgər biz bu parkları yaratmasaydıq, orada investorlara yaxşı güzəştli şərtlər yaratmasaydıq, indi 50-yə yaxın rezident olmazdı. Bu gün bu parklarda icra edilmiş və icra ediləcək layihələrin ümumi dəyəri 3,6 milyard dollardır. Bax, investisiya təşviqi sənədi 2,5 milyard manat sərmayə gətirir, sənaye parklarına isə 3,6 milyard dollar sərmayə qoyuluşu nəzərdə tutulur. Ondan 2,6 milyard dolları artıq qoyulub. Əlbəttə ki, Azərbaycanda avtomobil istehsalı başlayıb. Neftçalada ildə 10 min minik avtomobili istehsal ediləcək. Biz Gəncə avtomobil zavodunda 10 mininci traktorun istifadəyə verilməsini qeyd etmişik. Yəni əminəm ki, sənaye parklarının fəaliyyəti uğurlu olacaq. İndi bir neçə şəhərdə parklar yaradılır. Təkliflər verilməlidir ki, gələn il biz bu siyasəti hansı şəhərlərdə davam etdirə bilərik."

Ümumiyyətlə, ölkəmizdə mövcud olan sənaye parklarının və zonalarının bir əhəmiyyəti də ondadır ki, burada inşa edilən müəssisələr respublikamızın iqtisadi inkişafına öz töhfələrini verəcək, istehsal olunan məhsullar kiçik və orta sahibkarlığın inkişafına zəmin yaradacaq, onlarla yeni istehsal sahələrinin yaradılmasına və inkişafına təkan verəcək. Həmçinin, regionlarda sahibkarlıq fəaliyyətinin genişləndirilməsi və yerli ehtiyatlardan səmərəli istifadə etməklə sənaye sahələrinin inkişafı baxımından, sənaye zonalarının yaradılması mühüm önəm daşıyır.

Bir sözlə, bu il ölkəmizin gələcək inkişaf dinamikasını müəyyən edən sənaye sahəsinə mühüm diqqət yetirilməsi, bütövlükdə, iqtisadi gücümüzün daha da artmasına, neft-qaz amilindən asılılığın getdikcə azalmasına və iqtisadiyyatımızın dayanıqlı inkişafına əhəmiyyətli təsir göstərəcəkdir.

***RƏFİQƏ KAMALQIZI***

# Daşkənddə Leyla Əliyevanın "Dünya yuxutək əriyir..." şeirlər kitabı özbək dilində çap olunub




Daşkənddəki "Kamalak" nəşriyyatında Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi (AMM) və "Kaspi" Təhsil Şirkətinin birgə layihəsi ilə Heydər Əliyev Fondunun vitse-prezidenti, şairə Leyla Əliyevanın "Dünya yuxutək əriyir..." şeirlər kitabı özbək dilində çap olunub. AZƏRTAC xəbər verir ki, "Dünya yuxutək əriyir..." şeirlər kitabının tərtibçisi və "Ön söz"ün müəllifi AMM-nin direktoru Samir Abbasov, tərcüməçisi Şəhla Qasımovadır.

"Ön söz"də deyilir ki, gənc yaşlarından öz yaradıcılığı ilə həssas oxucu auditoriyasının diqqətini çəkən və məhəbbətini qazanan şairə Leyla xanım Əliyeva bir çox şeir kitablarında qəlbinin incə notlarını kağız üzərinə köçürərək, insanlara təbiilik, sadəlik və humanistlik kimi ülvi hisslər aşılayır.

Tərtibçi qeyd edir ki, dünyanın adi gözlə görülməyən ilahi gözəlliklərinə vurğunluq həm şair, həm də rəssam olan Leyla xanımın əsərlərinin mayasını təşkil edir və bu əsərlərdə əsl həyat mənzərəsi canlandırılır. "Ön söz"də vurğulanır ki, Leyla Əliyeva öz əsərlərində yaşadığı mühitdə baş verən hadisələri, yaşanan ağrıları, həyatın işığını və qaranlığını, xeyrini və şərini, sevincini və kədərini, yaxşılığı və pisliyi poeziyanın dili ilə oxucuya çatdırır.

Qeyd olunur ki, Leyla Əliyevanın Azərbaycan xalqının ümummilli lideri, babası Heydər Əliyevin əziz xatirəsinə ithaf etdiyi "Elegiya" əsəri milyonlarla insanın qəlbinə yol tapıb. Bu şeirdə şairə ayrılıq, həsrət hissi ilə yanan incə qəlbinin çırpıntılarını dilə gətirir. Nəşrdə müəllifin "Mənə güc ver, Allahım", "Elegiya", "Tək deyilsən", "Sevgi və nifrət", "Kor olmuşam", "Şeirim", "İnsanlar", "Getmə", "Bakı" və s. şeirləri ilk dəfə olaraq özbək oxucularına çatdırılır.

Kitabın tərtibçisi "Dünya yuxutək əriyir..." kitabının ruhu, mədəniyyəti, adət-ənənələri, dini, dili ilə Azərbaycan xalqına yaxın olan özbək auditoriyası tərəfindən maraqla qarşılanacağına əminliyini ifadə edir. Qeyd edək ki, Leyla xanım Əliyevanın şeirləri indiyə qədər "Kaspi" qəzeti və "Kaspi" təhsil şirkətinin "Azərbaycan ədəbiyyatını tanıdaq!" devizi altında həyata keçirdiyi layihələr çərçivəsində türk və fars dillərində İstanbul və Tehranda nəşr edilib.

# Kişineuda GUAM-a üzv ölkələrin hökumət başçılarının toplantısı keçiriləcək




Oktyabrın 5-də Moldovanın paytaxtı Kişineu şəhərində GUAM-a üzv ölkələrin hökumət başçılarının toplantısı keçiriləcək. Toplantıda Azərbaycanı Baş nazirin müavini Əli Əhmədovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edəcək. İclasda GUAM-a üzv ölkələr arasında iqtisadi, siyasi əlaqələrin inkişafı, beynəlxalq təşkilatlarda birgə fəaliyyətin perspektivləri müzakirə olunacaq. Sonda hökumət başçılarının birgə bəyannaməsi, GUAM üzvü olan ölkələrin gömrük idarələri arasında dövlət sərhədlərindən malların hava nəqliyyatı ilə daşınması ilə bağlı gömrük hüquqpozmalarına qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında protokol imzalanacaq.

# Müşahidə Şurasının yeni tərkibdə ilk iclası keçirilib



Dünən Azərbaycan Respublikasının Gənclər Fondunun Müşahidə Şurasının yeni tərkibdə ilk iclası keçirilib. SİA-nın verdiyi məlumata görə,tədbirdə Fond tərəfindən elan edilmiş 11-ci qrant müsabiqəsinin nəticələrinin təsdiqlənməsi və Fondun fəaliyyətini tənzimləyən bir sıra sənədlərin qəbul edilməsi məsələlərinə baxılıb. Məlum olduğu kimi, Azərbaycan Respublikası Prezidentinin 29 avqust tarixli Sərəncamı ilə Gənclər Fondunun Müşahidə Şurasının yeni tərkibi təsdiq edilmişdir.

Müşahidə Şurasının sədri, Prezident Administrasiyasının gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Yusuf Məmmədəliyev 11-ci qrant müsabiqəsi barədə Şura üzvlərinə məlumat verərək bildirib ki, 2018-ci il avqustun 28-dən sentyabrın 23-dək Fonda "A" (gənclər təşkilatlarının yerli layihələri), "B" (gənclər təşkilatlarının beynəlxalq layihələri) və "C" (fiziki şəxslərin layihələri) kateqoriyaları üzrə cəmi 1134 layihə təklifi daxil olub. Layihə təklifləri Fond tərəfindən ilkin ekspertizadan keçirilmiş və onların müəyyən edilmiş qaydalara uyğun tərtib edilməsi yoxlanılmışdır. Müşahidə Şurasında aparılan müzakirələr nəticəsində ilkin ekspertizanın nəticəsində müsabiqəyə buraxılmış "A" kateqoriyası üzrə 91, "B" kateqoriyası üzrə 8, "C" kateqoriyası üzrə 271, yəni ümumilikdə 370 layihənin maliyyələşdirilməsi barədə qərar qəbul edilmişdir (layihələrin siyahısı 2018-ci il oktyabrın 6-da Fondun internet səhifəsində yerləşdiriləcəkdir).

İclas çərçivəsində Azərbaycan Respublikası Prezidentinin 29 avqust 2018-ci il tarixli 253 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Gənclər Fondunun vəsaitindən istifadə, o cümlədən Fondun vəsaiti hesabına güzəştli kreditlərin verilməsi Qaydası"nın icrasını təmin etmək məqsədilə Fondun bir sıra prosedur sənədləri qəbul edilmişdir. Bu sənədlər Fondun yeni maliyyələşdirmə istiqamətləri, o cümlədən xaricdə təhsil, beynəlxalq təşkilatlarda təcrübə keçmə, beynəlxalq tədbirlərdə iştirak, həssas kateqoriyada olan gənclərin təhsil prosesinin maliyyələşdirilməsi, əmək haqqının qismən maliyyələşdirilməsi və s. üzrə müraciət qaydaları, onlara baxılması və qiymətləndirilməsi meyarlarını tənzimləyir. İclasda, həmçinin Müşahidə Şurasının üzvləri - Gənclər və idman nazirinin müavini İntiqam Babayev, Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva, Mədəniyyət nazirinin müavini Rafiq Bayramov, Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Mətin Kərimli, "Gənclərin İntellektual İnkişafına Yardım" İctimai Birliyinin İdarə Heyətinin sədri Seymur Orucov, Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının sədri Məryəm Məcidova, "Cavan" Gənclər Hərəkatı İctimai Birliyinin icraçı direktorunun müavini Murad Ağabəyli və "Gələcəyə Körpü" Gənclər İctimai Birliyinin sədri Seymur Vəliyev iştirak ediblər.






# Heyvanların Beynəlxalq Müdafiəsi Gününə həsr olunan tədbir keçirilib



***Heydər Əliyev Fondunun və Bakı Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə yaradılmış "Toplan" Sahibsiz itlərə Qayğı Mərkəzi oktyabrın 4-də Heyvanların Beynəlxalq Müdafiəsi Gününə həsr olunan tədbir keçirib.***

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva tədbirdə iştirak edib.

Paytaxtın Xətai rayonundakı idman-əyləncə park kompleksində "Azərcell" Telekom şirkətinin tərəfdaşlığı ilə keçirilən tədbirdə heyvan hüquqlarının müdafiəçiləri, uşaq evləri və internat məktəblərində tərbiyə alan, eləcə də xüsusi qayğıya ehtiyacı olan uşaqlar, müxtəlif məktəblərdən şagirdlər və tələbələr iştirak ediblər. İştirakçılar Heydər Əliyev Fondu və Bakı Şəhər İcra Hakimiyyətinin sahibsiz itlərlə işin təkmilləşdirilməsi üzrə birgə layihəsi çərçivəsində görülən tədbirlərlə tanış olublar.

Park ərazisində müxtəlif əyləncə və maarifləndirici zonalar yaradılıb. Ziyarətçilər xidməti itlərin və dekorativ itlərin şousunu izləyib, kiçik zooparkda heyvanlarla yaxından tanış ola biliblər. Eləcə də Azərbaycan Dövlət Gənc Tamaşaçılar və Kukla teatrlarının çıxışları, sirk tamaşası, uşaqlar üçün maarifləndirici və əyləncəli proqramlar, estafetlər, yarışlar və digər əyləncələr təqdim edilib.

Qeyd edək ki, Heydər Əliyev Fondu və Bakı Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə həyata keçirilən sahibsiz itlərlə işin təkmilləşdirilməsi üzrə layihə çərçivəsində bir sıra tədbirlərin reallaşdırılmasına başlanılıb. Hazırda Balaxanıda yerləşən Sanitariya İdarəsində yenidənqurma işləri aparılır. Balaxanı qəsəbəsində inşa olunacaq "Toplan" Sahibsiz itlərə Qayğı Mərkəzi müayinələrin aparılması, sterilizasiya, müalicə və heyvanlara mikroçipin yerləşdirilməsi üçün müasir tibbi avadanlıq və preparatlarla təchiz olunacaq. Burada fəaliyyət göstərəcək kadrlara xarici mütəxəssislərin iştirakı ilə təlimlər keçiriləcək. Layihə sakinlərin təhlükəsizliyinin təmin edilməsi, sahibsiz heyvanlara qayğı göstərilməsi, həmçinin cəmiyyətin onlara qarşı münasibətinin dəyişdirilməsi məqsədi daşıyır.

Layihə müddətində bir sıra maarifləndirmə işləri də aparılacaq. Maarifləndirmə işləri çərçivəsində heyvanlarla bağlı müxtəlif sosial tədbirlərin, sərgilərin təşkili, animasiya filmlərinin çəkilməsi, sosial videoçarxların, bilbordların, elektron təqdimatların hazırlanması nəzərdə tutulur. Heyvanların Beynəlxalq Müdafiəsi Günündə idman-əyləncə park kompleksində təşkil olunan əyləncə proqramından sonra uşaqlar Leyla Əliyeva ilə birlikdə Heydər Əliyev Mərkəzindəki "Live Life" ("Canlı həyat") sərgisini də izləyiblər.

Sərgi Heydər Əliyev Fondunun vitse-prezidenti və IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə təşkil olunub. Ekspozisiya ətraf mühit problemlərinə, təbiətin qorunmasına diqqət çəkmək və incəsənətin bu sahədə rolu barədə ictimaiyyəti maarifləndirmək məqsədi daşıyır.

5 oktyabr dünya ictimaiyyətinin məhəbbətlə qarşıladığı və daim qəlbində gəzdirdiyi müəllimlərin peşə bayramı, Beynəlxalq Müəllimlər Günüdür. 5 oktyabr tarixinin qeyd edilməsinə dair qərar ilk dəfə 1966-cı il oktyabrın 5-də YUNESKO tərəfindən verilib. Təşkilat tərəfindən müəllimlərin statusunun artırılması ilə bağlı tövsiyə xarakterli sənəd qəbul edilib. İndi dünyanın 100-dən çox ölkəsində oktyabrın 5-də müəllimlər peşə bayramlarını qeyd edirlər. Bu bayramın beynəlxalq səviyyədə keçirilməsi, həqiqətən də, böyük sevginin bəşəri təcəssümünü özündə ehtiva edir. Ağıl və elm kimi dünyaya məxsus olan açarın milyonlarla insanlara əxzində, məhz müəllim qüdrəti, müəllim əməyi əvəzsiz və sonsuzdur. Odur ki, bəşəriyyət formalaşdığı bir zamandan müəllimə olan münasibət fərqli məcrada özünü göstərə bilmişdir. Müəllim ustaddır, öyrədəndir, həyata vəsiqə verəndir.

**"Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi var. Mən dünyada müəllimdən şərəfli ad tanımıram"**

Ümummilli Lider
Heydər Əliyev

# 5 OKTYABR

# Beynəlxalq Müəllimlər Günüdür

## Müəllim ustaddır, öyrədəndir, həyata vəsiqə verəndir

Bu cur məfhumları özündə cəmləşdirən peşə sahibinin peşə bayramının respublika səviyyəsində qeyd olunması ona olan qiymətin bir ölçüsüdür. Dünyanın bütün peşə sahiblərini həyata hazırlayan elə müəllimdir. Bu baxımdan, müəllimlik peşəsi heç bir peşə ilə müqayisəyə gəlməyən bir nümunədir. Dünyanın ən müdrik simaları, liderləri, böyük şəxsiyyətləri, beynəlxalq aləmin hegemon qüvvələri bu ad qarşısında adiləşir, öyrənməyə və nəyisə əxz etməyə çalışırlar. "Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi var. Mən dünyada müəllimdən şərəfli ad tanımıram", - deyən Ümummilli Lider Heydər Əliyev, Azərbaycana rəhbərlik etdiyi bütün illərdə, müəllim əməyini yüksək qiymətləndirib, onlara böyük hörmətlə yanaşıb, təhsil işçilərinin maddi vəziyyətinin, rifah halının yaxşılaşdırılmasının qayğısına qalıb. Hər yerdə olduğu kimi, Azərbaycanda da müəllimə qarşı böyük bir imic formalaşıb, hər kəs onun şəxsiyyətinə və böyüklüyünə hörmətlə yanaşır.

### TƏHSİLDƏ ƏLDƏ OLUNAN YENİLİKLƏR AZƏRBAYCAN ELMİNİN DÜNYAYA İNTEQRASİYA SÜRƏTİNİ ARTIRIB

Dünyanın dərk edilməsi elmdə olduğundan, müəllimə bütün zamanlarda ehtiyac duyulur. Hər yerdə olduğu kimi, Azərbaycanda da müəllimə qarşı böyük bir imic formalaşıb, hər kəs onun şəxsiyyətinə və böyüklüyünə hörmətlə yanaşır. Həyatı, yazıbyaratmağı öyrədən müəlliminə mənən borclu olduğunu dərk edərək, onun vücudu qarşısında səcdə edir. Bir müəllimin gücü bir ordu ilə müqayisə oluna bilər. Hər fərdin cəmiyyətdə formalaşması müəllim əməyi, təxəyyülü, zəhməti və illəri hesabına başa gəlir. Cəmiyyətə savadlı, elmi bilikli gənclər ordusunu yetişdirən müəllim onu şəxsiyyət və vətəndaş olaraq cəmiyyətə hazırlayır. Elm və savadla bahəm, bu dəyərlərin aşılanması əsas şərt olduğundan, hər bir müəllim ünsiyyətdə olduğu şagirdlərinə bu keyfiyyətləri aşılamaq üçün öz peşəkarlığını ortaya qoyur. Müəllim pedaqoq və psixoloqdur. Müəllim özünü tərbiyə edib, özündə kamil insani sifətləri aşılayıbsa, deməli, müəllim adı ona yaraşır. Özünə aşıladığı bu sifətləri mütləq cəmiyyətə də aşılayacaq. Belə bir cəmiyyətdə missiya daşıyıcısı olan müəllimə yetirilən diqqət də yetərincədir.

Bu gün sivil ölkələr sırasında Azərbaycanı nüfuzlu dövlət kimi görürüksə, deməli, dövlətin güclü silahı olan elmi inkişafdadır. Ölkə rəhbərliyi tərəfindən atılan addımlar bu sahənin daha da inkişafına yönəlmişdir. İyirmi birinci yüzillik elm və informasiya əsri olduğundan, sürətli inkişafda Azərbaycan da təhsilini dünya səviyyəsində qurur. Təhsilin inkişafına göstərilən yüksək diqqət Azərbaycanın dünya miqyasında tanıdılmasına və layiqli yerinin təmin olunmasına xidmət edir. Təhsil sistemində əldə olunan yeniliklər Azərbaycan elminin dünyaya inteqrasiya sürətini artırıb.

### MİLLİ TƏHSİL QURUCULUĞU STRATEGİYASI ÖLKƏNİN TƏRƏQQİ VƏ İNKİŞAFINA ZƏMİN YARADIB

Dövlət başçısı İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 15 il ərzində, təhsilin inkişafı ilə bağlı qarşıya qoyulmuş hədəflər uğurla yerinə yetirilib. Qəbul olunmuş dövlət proqramları, layihələr, aparılan islahatlar təhsil müəssisələrinin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsində mühüm rol oynayır. Belə ki, məktəblərdə əsaslı təmir-tikinti işlərinin aparılması, müasir tipli yeni təhsil ocaqlarının tikilib istifadəyə verilməsi regionların sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqramlarında öz əksini tapıb. Eyni zamanda, "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin avadanlıqlarla təmin olunmasına dair İnkişaf Proqramı" bu sahədə təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini təmin edib. Dövlət başçısının yüksək diqqəti və effektiv göstərişləri əsasında atılan addımlar, icra edilən dövlət proqramları təhsil sistemində keyfiyyətcə yeni inkişaf meyillərinin əldə edilməsinə və yüksək nəticələrin qazanılmasına xidmət edir.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda da təhsil müəssisələrinin infrastrukturunun yenilənməsinə geniş yer ayrılıb. Dövlət proqramlarının icrası nəticəsində, son 15 ildə Bakı şəhərində və respublikanın bölgələrində 3000-dən çox yeni məktəb tikilib və yaxud əsaslı təmir edilib. Bunun nəticəsində, təxminən 1 milyon şagirdin təhsil şəraiti yaxşılaşıb, birnövbəli tədris sisteminin tətbiq edildiyi məktəblərin sayı əhəmiyyətli dərəcədə artıb.



Ölkəmizdə aparılan yenidənqurma işləri, iqtisadi, mədəni və sosial sahələrdə aparılan islahatlar təhsilin inkişafına birbaşa təsirini göstərir. Təhsilin səviyyəsi keyfiyyət baxımından, yeni mərhələni yaşayır. Müasir gənclik sabit ab-havanın içərisində məsuliyyət hissini ön plana çəkərək, Azərbaycanın gələcək inkişafına doğru potensialını ortaya qoyur. İctimai-siyasi həyatda qlobal dəyişikliklərin aparılması gənclərin dünyaya inteqrasiya olunmasına gətirib çıxarır. Ümummilli Lider Heydər Əliyevin milli təhsil quruculuğu strategiyası Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən ölkənin tərəqqi və inkişafına zəmin yaratdı. Bu gün Ulu Öndər Heydər Əliyevin maarifçilik ideyalarını Prezident İlham Əliyev, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı Səfiri Mehriban xanım Əliyeva əzmlə və uğurla həyata keçirir.

Son illərdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən kompleks tədbirlər, Prezident İlham Əliyevin bu amili dövlət siyasətinin mühüm prinsipləri sırasına daxil etməsi, təhsil işçilərinə hərtərəfli qayğı dövlətin gələcəyini daha etibarlı və inamlı görmək əzmindən xəbər verir. Zəngin təbii sərvətləri ilə dünyanın diqqətində olan Azərbaycan bu sərvətlərdən səmərəli istifadə ilə insan kapitalının daha da inkişaf etdirilməsini başlıca istiqamət seçib. Təsadüfi deyil ki, XXI əsr Azərbaycanında əsl təhsil bumu yaşanır. Son illərdə ölkəmizdə, heç bir dövrdə olmadığı qədər, yeni məktəblər tikilib, əlavə korpuslar inşa olunub. İndi Azərbaycanda elə təhsil ocaqları var ki, dünyanın ən inkişaf etmiş ölkələrindəki məktəblərdən fərqlənmir, hətta onları üstələyir. Sevindirici haldır ki, bu proses paytaxtla yanaşı, bütün bölgələri də əhatə edir.

Azərbaycanın Birinci Xanımı Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun dövlətin bu fəaliyyət proqramına verdiyi dəstək isə, öz mükəmməlliyi ilə seçilir. Heydər Əliyev Fondu ölkədə məktəb tikintisində yaxından iştirakla yanaşı, həmin təhsil müəssisələrinin əyani vəsaitlər və şagirdlərin məktəb ləvazimatı ilə təminatında da mühüm rol oynayır. Yeni və müasir məktəblər, yeni təhsil kompleksləri şagird kontingentinin təhsil şəraitini tamamilə dəyişir və tədrisin səviyyəsini yüksəldir.

### XALQIMIZIN MİLLİ TƏFƏKKÜRÜNDƏ MÜƏLLİM ADI HƏR ZAMAN UCALIQ, ZİYALILIQ VƏ MƏNƏVİ SAFLIQ RƏMZİ KİMİ TƏCƏSSÜM OLUNUR

Bu gün təhsilin keyfiyyətinin artırılması, daha savadlı kadrların seçilməsi məqsədi ilə müəllimlərin işə götürməsi müsabiqə yolu ilə aparılır. 2018-2019-cu tədris ili üçün ümumi təhsil müəssisələrinə müəllimlərin işə qəbulu üzrə müsabiqənin birinci və ikinci mərhələsi üzrə 4053 müəllim işə qəbul edilib. Əlbəttə ki, bu proseslərdən keçən müəllim savadlı olaraq yeni texnologiyanı tam qəbul edən müəllim kimi fəaliyyətə başlayır. Azərbaycanda təhsilə verilən qiymət və diqqət artıq təhsilin keyfiyyətcə yeniləşməsinə gətirib çıxarıb. Gələcəyin inkişafı onun təhsilindən başlayır. Prezident İlham Əliyevin dediyi kimi, "Azərbaycanda təhsil sisteminin təkmilləşməsinə çox böyük diqqət göstərilir. Təhsil bizim gələcəyimizdir". Dünyada mövcud olan ən qabaqcıl təcrübə Azərbaycanda tətbiq edilir. Buna görə də məsuliyyət hissi ilə cəmiyyətə layiqli vətəndaşlar yetişdirilməlidir. Müəllim hər bir yeniliyi izləyərək, onu tətbiq etməlidir. Müəllim savadı və dünyagörüşü ilə böyük bir nəsli tərbiyə edir. Bütün dünyada gedən prosesləri izləyir və ölkəmiz üçün vacib olan məsələləri şagirdlərə çatdırır. Bu günün məktəblisi, gələcəyin əsgəri və vətəndaşıdır. Bu prizmadan çıxış edərək, yüksək bilikli şagird yetişdirməklə, müəllim cəmiyyətə sağlam ruhlu vətəndaş hazırlamalıdır. Müstəqil Azərbaycan iyirmi birinci yüzillikdə qlobal inteqrasiya mexanizminə qoşulmuş sivil, demokratik dövlət kimi inkişafını elm və təhsildən kənarda görmür, bu sahələrin inkişafına daim xüsusi diqqət yetirir.

Dərindən fikirləşsək, görərik ki, cəmiyyətdə müəllimin əməyi böyükdür və gələcəyin inkişaf etməsində və tərəqqisində bugünkü şagirdlərin böyük rolu olacaq. Təməli məktəb partaları arxasında qoyulan şagirdlər, məhz bu gün müəllimin böyük zəhməti sayəsində inkişaf edir. Xalqımızın milli təfəkküründə müəllim adı hər zaman ucalıq, ziyalılıq və mənəvi saflıq rəmzi kimi təcəssüm olunur, böyük hörmətlə və yüksək ehtiramla çəkilir.

Vətənə layiqli vətəndaş yetişdirən müəllimin əməyi çox böyük olduğundan, onun bu peşədən qürur duymağa və fəxr etməyə haqqı var.

**NƏZAKƏT ƏLƏDDİNQIZI**

# “Hər məktəbdə 3 psixoloq olmalıdır”

***Tədris və tərbiyə müəssisəsi olan məktəblərdə müəllimlərin rolu əvəzsizdir. Müəllim uşaqlara, elm, bilik, savad verməklə yanaşı, onların vətənə layiq övlad kimi yetişməsində də böyük əmək sahibidir. Bəzən deyirlər ki, müəllim həm də psixoloq olmalıdır. Bəli, bu doğrudur. Müəllim psixoloq qabiliyyətindən uşaqlarla davranışında istifadə edə bilər. Lakin hər hansı şagirdin psixoloji probleminin həllində ona dərindən kömək edə bilməz. Belə olan halda köməyə məktəb psixoloqları gələ bilər. Bu da o deməkdir ki, məktəblərdə psixoloqların üzərinə çox çətin, məsuliyyətli iş düşür. Bəs görəsən məktəb psixoloqları necə fəaliyyət göstərməlidirlər? Onların fəaliyyətləri qaneedicidirmi?***



## “Psixoloqların işə qəbulu müsabiqə qaydasında həyata keçirilir”



Bakı şəhəri üzrə Təhsil İdarəsinin mətbuat xidmətinin rəhbəri Beşarət Məmmədov bildirib ki, artıq 4 ilə yaxındır ki, İdarənin tabeliyində fəaliyyət göstərən ümumi təhsil müəssisələrində psixoloqların işə qəbulu prosesi müəssisələrin daha yüksək səviyyəli kadrlarla təmin edilməsinə nail olmaq məqsədilə müsabiqə qaydasında həyata keçirilir: “Səmərəli tədris mühitinin formalaşdırılması baxımından məktəb psixoloqlarının üzərinə mühüm vəzifələr düşür. Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən 2017-ci ildə paytaxt üzrə ümumi təhsil müəssisələrində məktəb psixoloqlarının ilkin monitorinqi keçirilib. Monitorinqin keçirilməsində məqsəd məktəb psixoloqlarının peşəkar ehtiyaclarını müəyyənləşdirmək, uşaqlarla həyata keçirdikləri psixoloji işlərin keyfiyyətini öyrənməkdən ibarətdir. Ötən dərs ili ərzində də BŞTİ tərəfindən məktəb psixoloqlarının monitorinqləri davam edib. Monitorinqlər nəticəsində məktəb psixoloqlarının fəaliyyətinin təkmilləşdirilməsi, iş şəraitinin yaxşılaşdırılması və iş prosesinin səmərəliliyinin artırılması üçün görüləcək işlər müəyyənləşdirilib”.

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumi təhsil müəssisələrində vaxtaşırı psixoloqlarla görüşlərin keçirildiyini deyən qurum sözçüsü söyləyib ki, görüşlərin keçirilməsində əsas məqsəd məktəb psixoloqlarının peşə bacarıqlarını inkişaf etdirmək, onları vəzifə və hüquq öhdəlikləri ilə bağlı maarifləndirmək, uşaqlarla həyata keçirdikləri psixoloji işlərin keyfiyyətini yüksəltməkdən ibarətdir: “Görüş zamanı Bakı Şəhəri üzrə Təhsil İdarəsinin Təlimə Dəstək Mərkəzinin psixoloji xidmətin təşkili üzrə metodistləri “Məktəbdə psixoloji xidmətin təşkili” mövzusunda təqdimatlarla çıxış edirlər. Görüşlərdə məktəb psixoloqlarının fəaliyyəti zamanı qarşılaşdıqları problemlər haqqında söhbət açılır və qarşılıqlı müzakirələr aparılır. Psixoloqlara uşaqların təlim-tərbiyəsi problemləri və psixoloji xidmət sahəsində yaranan yeniliklərlə bağlı məktəb rəhbərliyi, müəllim, valideyn və tərbiyəçilərin maarifləndirilməsi istiqamətində təlimlərin təşkili, maarifləndirici-profilaktik tədbirlərin həyata keçirilməsi ilə əlaqədar müvafiq tövsiyələr də verilir. Görüşlər zamanı psixoloqların fəaliyyət planı, ayrı-ayrı yaş qruplarına aid olan şagirdlərin idrak sferasının xüsusiyyətlərinin diaqnostikasının aparılması məsələləri müzakirə olunur, psixoloqlara bu istiqamətdə müvafiq alətlər və metodik tövsiyələr təqdim edilir”.

B.Məmmədov qeyd edib ki, Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən paytaxtın bütün ümumi təhsil müəssisələrinin rəhbər, müəllim və digər əməkdaşları üçün hər tədris ili ərzində 2 dəfə təşkil olunan “Məktəb seminarları” çərçivəsində məktəb psixoloqları ilə də görüşlər keçirilib və müzakirələr aparılıb: “Sonuncu seminarların mövzusu “Şagirdlərin idrak sferasının korreksiyası və inkişaf etdirilməsi yolları” olub. Seminarda psixoloqları narahat edən əsas məsələlər ətrafında diskussiyalar təşkil olunub. Eləcə də, məktəb psixoloqları şagirdlərin təfəkkür, təxəyyül, diqqət, hafizə və nitq sferalarındakı qüsurlarını aradan qaldırmaq üçün əyani alətlərlə təmin ediliblər. Onu da qeyd edək ki, Bakı şəhərindəki ümumi təhsil məktəblərində fəaliyyət göstərən psixoloqlar üçün təlimlər təşkil edilib. Təlimlər “Təhsildə inkişaf və innovasiyalar üzrə 1-ci qrant müsabiqəsi” çərçivəsində “Psixoloji xidmətin təşkili və effektivliyinin artırılması” layihəsi üzrə keçirilib. Təlimləri Rusiyadan olan ekspert Anna Antonova aparıb. Layihə ümumi təhsil müəssisələri kateqoriyası üzrə dəstəklənib. Layihənin həyata keçirilməsinin əsas məqsədi məktəblərdə psixoloji işin düzgün qurulması, psixoloqların maarifləndirilməsi, onlarda məktəb mühitini düzgün analizetmə qabiliyyətinin formalaşdırılması, şagird portfoliolarının yaradılması, valideynlərlə işin qurulması və hesabatlılığın təmin olunmasıdır”.

## Görəsən məktəblərdə psixoloqların sayı yetərlidirmi?

Bakı şəhəri üzrə Təhsil İdarəsi nəzdində fəaliyyət göstərən Təlimə Dəstək Mərkəzinin psixoloqu, metodisti Səidə Əhmədova məktəblərdə hər pillə üzrə psixoloqların fəaliyyətinin vacibliyini bildirib: “Çünki elə məktəblər var ki, orada kontingentin sayı 4 min nəfəri keçib. 4 min uşağa 1 psixoloq təbii ki, kifayət deyil. Hər məktəbdə 3 psixoloqun olması ilə bağlı təklif təqdim edilib. Bu təklifin gələcəkdə Nazirlər Kabinetinə təqdim edilməsi nəzərdə tutulur. Düzdür, bu təklifin bütün məktəblər üçün keçərli olması mümkün deyil. Amma kontingenti mindən çox olan məktəblərdə bunu tətbiq etmək olar. Hətta iki bölməli məktəblərdə rus və Azərbaycan dilli psixoloqların fəaliyyəti vacibdir. Hazırkı dövrdə uşaqların sosial şəbəkələrə, internetə meyillənməsi bir sıra neqativ hallara gətirib çıxara bilir. Belə hallarda onları başa düşən ilk şəxs psixoloq olur. Sinif müəllimləri də uşaqlara dəstək göstərə bilir. Lakin onlarla necə işləməyi bilmədikləri üçün belə uşaqlara yadım edə bilmirlər. Hər bir uşağa fərdi yanaşma tərzi göstərilməlidir. Məktəblər fəaliyyət göstərən psixoloqlar mütləq şəkildə bu ixtisası bitirməlidirlər”.



## Məktəb psixoloqlarının əsas fəaliyyət istiqamətini nə təşkil edir?

176 nömrəli tam orta məktəbin psixoloqu Qəmər Bünyatova: “Hər bir uşağa fərdi yanaşmaq çox çətindir. Bizim əsas məqsədimiz uşaqlarda millilik, demokratiklik, vətənpərvərlik hisslərini aşılamaq, müstəqil həyatda özünü doğrulda biləcək vətəndaşlar yetişdirməkdir. Məktəb psixoloqları da işini bu istiqamətdə qurmalıdır. Məktəbin psixoloqu olaraq siniflərdə ilk işim uşaqların emosional durumunu yoxlamaqdır. Əgər ümumi sinifdə gərginlik, aqresiya varsa, onun səbəblərini araşdırır, fəaliyyətimi onun aradan qaldırılması istiqamətində qururam. Yeni tədris ilində fəaliyyətimizin əsas istiqaməti birincilər və məktəbə təzə gələn şagirdlər təşkil edir. Hər bir məktəbin öz daxili qaydaları olduğu üçün tədris ocağına yeni gələn uşaqlara kollektivə, qaydalara uyğunlaşması dövründə dəstək olmağa çalışırıq.

Təbii ki, bu işin öhdəsindən tək gəlmək çox çətindir. İşə məktəb psixoloqları ilə yanaşı sinif rəhbərləri, idarəedici heyət və şagirdlər cəlb edilir. Yeniyetmə dövründə olan şagirdlərlə daha fərqli fəaliyyət qurulur. Çünki, bu yaş dövründə şagirdlərdə fizioloji dəyişikliklər baş verir, sosiallaşma gedir və tez təsir altına düşə bilirlər. Şagirdlərin bu dövründə onların ünsiyyət qurma ilə bağlı problemləri yaranır. Yeniyetmə dövründə uşaqlara daha çox vaxt ayrılmalı, ünsiyyət qurulmalıdır. Təəssüf ki, məktəb psixoloqların işində müəyyən boşluqlar var. Çünki, bizə dərs olaraq siniflərlə çalışmaq üçün zaman ayrılmır. Ümumi siniflə işləmək imkanı olduqda, hər hansı problemi olan uşağı daha tez müəyyənləşdirmək olar. Bəzən uşaqlar öz problemlərini gizlədir, yardıma müraciət etmək üçün utanırlar. Lakin kollektiv şəkildə ayrıca dərs ayrıldıqda belə şagirdlərlə daha sıx çalışmaq olar. Ümumiyyətlə, yeniyetməlik dövründə olan şagirdlərlə erkən nikahlar, sanitar-gigiyena qaydaları və digər məsələlər haqqında maarifləndirmə aparılmalıdır. Bunun üçün dərs saatının ayrılması daha effektli ola bilər. Aşağı siniflərdə ən çox problem mütaliə ilə bağlı olur ki, kiçik yaşlı şagirdlər öz fikirlərini çatdırmaqda müəyyən çətinliklər çəkirlər. 7 yaşlı uşaqların böhran dövrü olur ki, həmin dövrdə hormonal fon formalaşır ki, bu dövrdə uşaqlara dəstək ola bilərik. Orta siniflərdə daha çox ünsiyyət qurmaqla bağlı narazılıqlar yaşanır ki, bu da fizioloji problemlərlə bağlı olur. Bu dövrdə də məktəb psixoloqlarının köməyi mühümdür. Yuxarı sinif şagirdləri müstəqil həyata qədəm qoyduqları üçün onlarla ünsiyyətdə gələcək həyatları ilə bağlı düzgün qərar vermək, cinsi tərbiyə məsələlərində daha çox üstünlük verilir”.

86 nömrəli tam orta məktəbin psixoloqu Sevinc Məmmədova: “14 ildir ki, ixtisasıma uyğun olaraq bu məktəbdə psixoloq kimi fəaliyyət göstərirəm. Məktəbdə ilk fəaliyyətim psixoloq olaraq uşaqlara lazımlı olduğumu isbat etmək idi. Çünki bizdə əvvəllər psixoloqlarda da psixiatr kimi baxırdılar və psixoloqa müraciət edənlərin yalnız xəstə olduğunu düşünürdülər. Hətta yanıma uşaq gətirəndə onlarda böyük aqresiya yaranır, xəstə olmadıqlarını vurğulamağa çalışırdılar. Artıq illərdən sonra uşaqlar bu fərqliliyi anladılar və indi çəkinmədən istənilən problemlərində rahat şəkildə mənə müraciət edirlər. Məktəbimizdə psixologiya ilə bağlı maarifləndirmə, profilaktik, diaqnostik, profilaktik tədbirlər davamlı şəkildə həyata keçirilməkdədir. Bu sahənin inkişafı istiqamətində işlər davam etdirilir. Hər yaş dövründə olan problemlər həm müəllim-şagird, həm də valideyn-şagird münasibətlərində özünü göstərir. Mənə ən çox 6 yaş və yeniyetməlik dövrünü yaşayan uşaqlarla bağlı müraciətlər edilir. Özümüzdə bu yaş dövründə olan uşaqları daim nəzarətdə saxlayır, onlara kömək etməyə çalışırıq. Məktəbimizdə siniflərin sayı çox olduğu üçün tək psixoloqun bütün işlərin öhdəsindən gəlməsi mümkün deyil. Belə uşaqların aşkar edilməsində mənə sinif rəhbərləri kömək edir. Siniflə uşaqlarla daha çox fənn müəllimləri ünsiyyətdə olur və bu onlara problemli uşaqları müəyyən etməyə kömək edir. Biz də əlbəttə ki, müəllim-şagird münasibətlərinə xələl gətirməmək şərt ilə problem olan siniflərdə test keçirir, narahatçılığı olan şagirdlə ünsiyyət qururuq. Bəzən şagirdlərdə yaranan problemlər ailədən qaynaqlanır. Hər kəsə məlumdur ki, VII-VIII sinif şagirdlərində fizioloji dəyişikliklər baş verir. Lakin hazırda fizioloji dəyişikliklər tezləşib, hətta ibtidai sinif şagirdlərində belə dəyişikliklərin baş verdiyini görmək mümkündür. Bu dəyişikliklər psixoloji dəyişikliklərə də təsir edir. Belə olan halda, biz uşaqlarla bu istiqamətdə söhbətlər aparır, bu halı anlayışla qarşılamağı və onların öhdəsindən necə gəlməyi başa salırıq. Belə uşaqlarda xüsusi aqresiya, emosiya baş verir ki, bu da müəllim və ya valideynlər xüsusi konfliktlərə gətirib çıxara bilir. Bəzən belə yaşlı şagirdlərlə fəaliyyətə valideynləri də cəlb edirik. Çünki, valideynlər uşaqlarındakı olan problemi bilməli, övladlarının çətin dövrlərində onlara təmkinlə, anlayışla yanaşmalıdırlar. Valideyn, müəllim və psixoloq birlikdə işləməlidirlər. Əks halda, müsbət nəticə əldə etmək mümkün deyil. Lakin ən yaxşı nəticə əldə etmək üçün məktəb psixoloqlarına ayda iki dəfə xüsusi dərsin ayrılması vacibdir. Bu dərslər I, VI, V, VII və IX siniflər üçün təşkil edilsə daha məqsədəuyğun olar”.

Məktəblərdə psixoloqların fəaliyyəti ilə bağlı fikirlərini bildirən təhsil üzrə ekspert Əjdər Ağayev bu xidmətlərin genişləndirilməsinin vacibliyini vurğulayıb: “Müəllim-şagird münasibəti, tədris prosesinin gedişi, məktəbə rəhbərlik və valideynlər münasibətlərini təhlil edən zaman görürük ki, çoxlu psixoloji boşluqlar var. Mən düşünürəm ki, məktəblərdə psixoloji xidmət genişləndirilməlidir. Düzdür, məktəblərimizdə yaxşı psixoloqlar var. Amma onların sayı çoxaldılmalıdır. Mən düşünürəm ki, müəllim ilk növbədə öz işinin vurğunu olmalıdır. Əgər hər bir şəxs öz işini və peşəsini sevsə daha böyük uğurlar əldə etmək mümkündür. Həmçinin məktəblərdə psixoloqların rəyinə qiymət verilməlidir. İnsana dəyər veriləndə, onun işi də güclü olur. Əgər bütün bunlar nəzərə alınarsa, məktəblərdə psixoloji xidmət ən avanqard mövqedə olan xidmət sahələrində biri kimi başa düşülər”.

***Nailə Məhərrəmova***

***Sosial şəbəkələrdə özlərini "axrıncı yol" deyilən vəziyyətə salan "klaviatura qəhrəmanları"nın bu və ya digər şəkildəki əlqatma kampaniyaları davam edir. "Meydan" TV, "Turan" TV, "Azadlıq", "Made in Azerbaijan" və s. tipli səhifələrin, sözün həqiqi mənasında, nümayiş etdirdikləri həyasızlıqları, qara-qışqırıqları, əslində, ictimai rəyi də bezdirib. Hətta deyərdik ki, zəhləsini aparıb. Heç bir nəticə əldə edə bilmədiklərini anlasalar belə, hələ də var-gəl edən bu kimi zatıqırıqlar şəbəkəsinin əsas məqsədlərinin hansı tərəfə yönəldiyi də zatən bəllidir.***

# Qırmızı peysərlərə biçilmiş xəyanət gerçəklikləri

*Bu tipli şərəfsizlik simvolları barədə çox faktlara əsaslanmaq və sübutları ortaya qoymaq olar*

### Çin bazarının həyasız alverçiləritək...

Misal üçün, "Meydan" TV deyilən şeytan yuvasının (el arasında "Şeytan" TV adlandırılır-R.R.) həbs edilən sözdə müxalifətçilərin adlarını yan-yana düzüb, onlara azadlıq tələb etməsi məsələsini araşdırarkən, bir daha məlum olur ki, belələri üçün cinayət törətmək, qanun pozuntusu adi hala çevrilib və həmin əməllərin üstündə həbs olunanlar varsa, demə, bunun özü, yəni həbsolunma "qanun pozuntusuymuş" (?!-R.R.).

Görünür, növbəti mövzuları bitər-bitməz onlara erməni əmi-dayılarından yeni tapşırıq, daha dəqiq desək, sifariş gəlib ki, indi də müxtəlif qanunsuzluq əməlləri törədərək, həbs edilənlər ətrafında tumanlarını başlarına çəksinlər və Azərbaycan dövlətinə, hakimiyyətinə qarşı Çin bazarının həyasız alverçilərətək qara-qışqırıqlar, şivənçiliklər salsınlar.

### "Meydan" TV adlı şeytan yuvası qondarma "DQR"i və "erməni soyqırımı"nı tanıdığını necə etiraf edib?

Bu gün həmin o el arasında deyilən "Şeytan" TV-nin erməni lobbisi və bu lobbi ilə cici-bacılıq edən bəzi Avropa təşkilatları ilə kifayət qədər yaxınlığı var, üstəlik, həmin qurumun saytında bir vaxtlar qondarma "DQR"i tanındığını da dolayısı ilə nümayiş etdirmişdi. Yəni bu internet informasiya resursu qondarma "erməni soyqırımı" haqqın-




da yazarkən, nə dırnaq işarəsindən, nə də "qondarma" sözündən istifadə etmişdi (Fotoya bax-R.R.).

Erməni terrorunu, erməni vəhşiliyini və işğalçılıq faktını bu və ya digər şəkildə tanıdığını sərgiləyən "Şeytan" TV nədənsə, bu xəyanətkar addımını unudaraq, bir neçə özləri kimi dılğır və satqına görə Azərbaycan dövlətinə qarşı elə ermənilər qədər düşmənçilik mövqeyi sərgiləyir! Halbuki bu gün Seymur Həzinin, Murad Ədilovun, Elçin İsmayıllının, Ziya Əsədlinin, Rövşən və Rüfət Zahidovların, eləcə də, Emin Saqiyevin hansı səbəblərə görə həbs olunmaları bir çoxlarına, əsasən də, sağlam düşüncəli insanlara bəllidir. O cümlədən, xatırlatmaq yerinə düşərdi ki, Azərbaycan hüquqi dövlətdir və onun maraqlarına qarşı atılan istənilən addıma görə, vəzifəsindən asılı olmayaraq, hər kəs eyni məsuliyyəti daşıyır!




### Onlar separatçı Əlikram Hümbətovla birgə təxribatçı-casus və terrorçu Yunis Səfərovu "siyasi məhbus" və "qəhrəman" elan ediblər!

Bu sadə reallığı qulaqlarının ardına vuran "şeytançılar" şəbəkəsi bir az da irəliyə gedərək, "boyunlarına prinsipial və ardıcıl mübarizə aparmaq haqqı" qoyurmuş. Halbuki bunların boyunları qırmızı və tük bitməyən qıp-qırmızı peysərlərdən ibarətdir. Peysər ifadəsi isə müasir leksikonumuzda heç də müsbət məna kəsb etmir. Yəni belə deyək: qırmızı peysər varsa, onun üzərində haqq-filan ola bilməz!

Yeri gəlmişkən, "Şeytan" TV-nin və onun kimi digər sosial şəbəkə səhifələrinin nəzərə çarpan "özəlliklərindən" biri də "erməni məzlumçuluğu"dur. Hələ 1988-ci ildə ermənilər Qarabağın Ermənistana birləşdirilməsini tələb edərkən, Mixail Qorbaçovun qarşısında özlərini "aciz", "günahsız", "yazıq" və "məzlum" kimi göstərməyə çalışırdılar. Hələ həmin vaxtlar rus dilində "mnoqostradalnıy armyanskiy narod" deyilən bir ifadə də var idi. Yəni "çox əzabkeş erməni xalqı".

İndi, bu haray-şivənçilərin də davranışları, bilavasitə "erməni məzlumçuluğu"dur. Yuxarıda adları çəkilənlər qalsın bir yana, demə, Gəncə hadisələrində terror hadisəsi törədən Yunis Səfərov da bunların "siyasi məhbus" siyahılarına salınıbmış. Açıq deyək, bəlli xarici qüvvələrin verbovka edilərək, Azərbaycana təxribatlar törətməyə göndərilmiş casusu indi də "siyasi məhbusa" çevrilib. Əcəba, bu amilin özünün nə qədər iyrənc və saxta olması göz önündə deyilmi?!

Digər bir məqama diqqət yetirək. Gəncə hadisələri baş verər-verməz bu gün Ermənistana Azərbaycana qarşı "at oynadan" separatçı və şərəfsizlik simvolu olan Əlikram Hümbətov da həmin bu Yunis Səfərovu dəstəkləyən çıxışlar edib, üstəlik, onu "qəhrəman" elan etmişdi. İndi də "Meydan" TV adlı "Şeytan" TV həmin "qəhrəmanın" halına acıyan çıxışlar edir və s. Məgər bu faktın özü heç nəyi demirmi?! Heç nəyi sübuta yetirmirmi?!



### Əli Kərimlinin "Azadlıq" səhifəsi şanlı Atatürkü və Türk dünyasını təhqir edir

Yeri gəlmişkən, bu gün, nəinki Azərbaycan dövlətinə və xalqına, eləcə də, Türk dünyasına qarşı gizli və açıq düşmənçilik mövqeyi sərgiləyən sosial şəbəkə səhifələrindən biri də AXCP sədri Əli Kərimlinin, bilavasitə nəzarətində olan "Azadlıq"dır. Necə deyərlər, Əli Kərimlisiz işmi keçər? Məhz bu səhifədə məşhur rəsm əsərlərinin birində Heydər Əliyevlə Atatürkün rəsmlərinin də yer aldığı bir əsər barədə "müzakirə" açılıb və söz yox ki, bunlar öz tərbiyəsizliklərini, ləyaqətsizlik və mənəviyyatsızlıqlarını növbəti dəfə ortaya qoyaraq, bu tarixi şəxsiyyətlər barədə, əslində, özlərinə aid olan ifadələri paylaşıblar. Əslində, Əli Kərimlinin nə-




zarətində olan bir nəcis qoxulu sosial şəbəkə səhifəsindən hər hansı bir tərbiyəni gözləməyə də dəyməz. Bir halda ki, Əli Kərimli "liderim" deyib, sonradan ona - mərhum Əbülfəz Elçibəyə qarşı olmazın çirkin siyasət aparan, onun sədarət postunu, sözün əsl mənasında, əlindən qoparıb işğal edən, oraya DÜRTÜLƏN siyasi dələduzlardan biridir. Bu gün onun vaxtilə müxtəlif mətbuat səhifələrində yazdırdığı söyüş və həqarət yazıları arxivlərdə qalmaqdadır (fotoya bax-R.R.). Bu baxımdan, onun barəsində də zatən hər şey məlumdur...

Beləliklə, bu tipli şərəfsizlik simvolları barədə çox faktlara əsaslanmaq və sübutları ortaya qoymaq olar. Sadəcə, ömürləri boyu xəyanət edənlərin bu gün Azərbaycanın dövlət maraqlarına da xəyanət etmələrindən təəccüblənməyə də dəyməz. Bu, onların boyunlarına, yox-yox, PEYSƏRLƏRİNƏ biçilən gerçəklikdir!

**Rövşən RƏSULOV**

## OPEC-in baş katibi Vladimir Putinlə neft bazarındakı vəziyyəti müzakirə edib



Neft İxrac Edən Ölkələr Təşkilatının (OPEC) baş katibi Məhəmməd Sanusi Barkindo Rusiya Prezidenti Vladimir Putinlə neft bazarındakı son inkişafları müzakirə edib. AZƏRTAC OPEC-ə istinadla xəbər verir ki, M.Barkindo Moskvada keçirilən "Rusiya enerji həftəsi" adlı Beynəlxalq Forum çərçivəsində V.Putinlə görüşüb. Rusiya Prezidenti OPEC və qeyri-OPEC neft istehsalçıları arasında birgə səyləri və qlobal neft bazarında son dövrdə yaşanan inkişafları yüksək qiymətləndirib.

M.Barkindo isə "Əməkdaşlıq Bəyannaməsi" üzrə liderlik roluna və verdiyi töhfəyə görə Rusiya Prezidentinə təşəkkürünü bildirib.

## Diqqət: Yalnız sertifikatı olan yumşaq oyuncaqlar uşaqların sağlamlığı üçün təhlükəsizdir



Mağazalarda uşaqlar üçün müxtəlif yumşaq oyuncaqlar satılır. Onların keyfiyyəti və sağlamlığa təsiri valideynləri hər zaman düşündürür. Respublika Sanitar-Karantin Müfəttişliyindən AZƏRTAC-a verilən məlumata görə, bu il həmin məhsullarla əlaqədar cəmi 10 müraciət daxil olub və onların hər biri yoxlanılandan sonra satışına icazə verilib. Müfəttişliyin şöbə müdiri Yədulla Balışevin dediyinə görə, yumşaq oyuncaqların yol kənarında satılması düzgün deyil. Yumşaq oyuncaqların üzərinə qonan toz və digər maddələr müəyyən vaxtdan sonra uşaqlarda müxtəlif xəstəliklər və patologiyalar yaradır. Yalnız gigiyenik sertifikatı olan və keyfiyyətli məhsulun satışına icazə verilir.

# Azərbaycanda sahibkarlığın inkişafı keyfiyyətcə yeni mərhələyə qədəm qoyur

*Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayevin yap.org.az-a müsahibəsi*

***- Məmməd müəllim, Prezident İlham Əliyev tərəfindən həyata keçirilən iqtisadi siyasət yeni dövrün tələbinə uyğun daha innovativ inkişaf kursu götürərək Azərbaycana böyük uğurlar qazandırır. Bu strategiyanı xarakterizə edən prinsipləri necə şərh edərdiniz?***

- Azərbaycanın müstəqillik tarixində təməli xalqımızın Ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş və son 15 ildə Prezident İlham Əliyevin uğurla davam etdirdiyi məqsədyönlü siyasət sayəsində ölkənin iqtisadi müstəqilliyinin təmin olunması yolunda inamlı addımlar atılıb. İqtisadi müstəqillik Azərbaycanın çox mühüm perspektivlərə malik ölkə kimi dinamik inkişafını təmin edib.

Bu islahatların əsas məqsədi ölkə iqtisadiyyatının şaxələnməsinin təmin olunması, yeni iş yerlərini yaradılması, ölkəmizin iqtisadi qüdrətinin gücləndirilməsi və nəticə etibarı ilə əhalinin rifah vəziyyətinin yaxşılaşdırılmasıdır.

Bu gün Azərbaycan dünyada nümunəvi inkişaf modelinə malik olan bir ölkə kimi fərqlənir. Davamlı inkişaf sayəsində respublikamız Cənubi Qafqaz regionunun lider dövləti səviyyəsinə yüksəlib. Bunun da nəticəsidir ki, bölgədə Azərbaycanın təşəbbüsü və fəal iştirakı olmadan hər hansı layihəni reallaşdırmaq mümkün deyil. Ölkəmiz, eyni zamanda, müntəzəm olaraq qlobal miqyasda yeni-yeni əməkdaşlıq platformaları ilə çıxış edir ki, bunun da sayəsində respublikamızın beynəlxalq nüfuzu və təsir imkanları əhəmiyyətli dərəcədə artıb. Müstəqil Azərbaycanın nüfuzlu regional və qlobal faktora çevrilməsinin isə obyektiv əsasları var.

Bu gün Azərbaycanda xalq-iqtidar birliyi islahatların, daxili və xarici siyasət kursunun səmərəliliyini təmin edən əhəmiyyətli strateji faktor kimi çıxış edir. Eyni zamanda, mütəmadi surətdə həyata keçirilən islahatlar mövcud inkişafı sürətləndirməklə yanaşı, yeni inkişaf perspektivlərinin müəyyənləşdirilməsini şərtləndirir.

Kiçik və orta sahibkarlıq subyektlərinin inkişaf etdiyi ölkələr iqtisadi cəhətdən daha dayanıqlıdır. Ölkə Prezidentinin fərmanı ilə İqtisadiyyat nazirliyinin tərkibində müstəqil şəkildə "Sahibkarlığın İnkişafı Agentliyi" yaradıldı. Agentlik Kiçik və orta sahibkarlıq strategiyasının hazırlanması, maliyyə rezurslarına çıxış imkanlarını artırmaq sahəsində böyük işlər görəcək. Əsas məqsəd kimi kiçik və orta sahibkarlığın biznesdə, ümumdaxili məhsulda payını artırmaq qarşıda durur.

Ölkə iqtisadiyyatının inkişafı üçün mütəmadi surətdə reallaşdırılan praqmatik islahatlar modeli formalaşdırılıb ki, bu da, bütövlükdə milli inkişafa təkan verən əhəmiyyətli amil səciyyəsi daşıyır.

***- Azərbaycan Sahibkarlar Konfederasiyası özəl sektorla dövlət arasında bir körpü funksiyası daşıyır. Bu gün sahibkarları narahat edən əsas problemlər hansılardır?***

- Bildiyiniz kimi, Azərbaycanda sahibkarlığın inkişafı məqsədilə onların təşkilatlanması üçün mühüm işlər görülür.

Konfedersiya sahibkarlarla əlaqələrində dövlətin tərəf müqabilidir və biz bunu Baş Kollektiv sazişlə rəsmiləşdiririk. Azərbaycan Hökuməti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Sahibkarlar Konfedersiyası bu sənədə imza ataraq müəyyən dövr üçün üzərilərinə öhdəliklər götürür və onların yerinə yetirilməsi üçün tədbirlər həyata keçirilir. İqtisadiyyat nazirliyi ilə mütəmadi əməkdaşlıq edirik. Əmək və əhalinin sosial müdafiəsi nazirliyi ilə sıx əməkdaşlıq çərçivəsində çalışırıq. Sahibkarları narahat edən əsas məsələlərdən biri vergi məsələsidir. Vergilər nazirliyi ilə görüşlərimiz olur. Təsadüfü deyil ki, yeni təyin olunan vergilər naziri cənab Mikayıl Cabbarovun ilk görüşlərindən biri sahibkarlarla oldu. Hazırda qarşıda duran məsələləri həll etmək üçün sistemli bir iş qurmağa çalışırıq, xüsusən də vergi sistemi ilə bağlı sahibkarları narahat edən məsələlər müzakirə platformasına çıxarılır. Bu səbəbdən də Vergilər nazirliyi ilə Konfederasiya arasında Əməkdaşlıq Şuarası yaradılmış və fəaliyyət göstərir. Rübdə bir dəfə bu qurumun iclası keçirilr və sahibkarları narahat edən məsələlər gündəmə gətirilir. Danılmaz faktdır ki, sahibkarların arasında neqativ hallara və qanunu pozanlara da hələ də rast gəlirik.



2018-ci ilin iyulun 08-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında dövlət başçısı İlham Əliyev demişdir: "Sahibkarlar tam aydın bilməlidirlər ki, işləmə qaydaları nədən ibarətdir. O da çox sadədir: qanunlara riayət etmək, vergiləri tam ödəmək, qaçaqmalçılıqla məşğul olmamaq və ölkə iqtisadiyyatına ziyan vurmamaq. Əsas şərtlər bundan ibarətdir".

Bununla yanaşı unutmayaq ki, sahibkar həm də dövlətin vergi ödəyicisidir. Elə etməliyik ki, sahibkar da öz məsuliyyətini dərk etsin. Artıq Gömrük komitəsi, Miqrasiya xidməti ilə sıx əməkdaşlığa başlamışıq. Sahibkarların üzləşdikləri problemləri mütamadi olaraq aidiyyatı dövlət orqanları qarşısında qaldırırıq.

Vergilər nazirliyi və eləcə də Əmək və əhalinin sosial müdafiəsi nazirliyi 2019-cu ilə böyük islahatların proqnozlarını veriblər. Hesab edirəm ki, vahid bir verginin tətbiq edilməsi həm vergi daxilolmalarını artıracaq, həm də vergi bazasının genişlənməsinə imkan verəcək. Sahibkarları vergi və gömrük sistemi ilə bağlı narahat edən çoxlu məsələlər var ve topladığımız çoxsaylı təkliflər nazirliyə təqdim edilib. Hesab edirəm ki, vergi sistemində aparılacaq islahatlar effektiv olacaq və təkmil vergi ödəmə sistemi yaradılacaq. İlk növbədə vergi yükünün sahibkarlar arasında ədalətli şəkildə bölünməsi mühüm amildir.

İnanırıq ki, təklif formasında təqdim etdiyimiz məsələlərlə bərabər bu dəyişikliklərin qəbul olunması sahibkarlığın inkişafına dəstək olacaqdır.

***- Azərbaycanda fəaliyyət göstərən sahibkarların böyük bir hissəsi Konfederasiyanın üzvüdür. Ümumiyyətlə, Azərbacanda iş adamlarının təşkilatlanmasının səviyyəsi Sizi qane edirmi?***

- Əminliklə deyə bilərəm ki, sahibkarlar atıq bir sinif kimi formalaşıblar, onların inkişafı üçün dövlət mühüm islahatlar aparır. Sahibkarlığın ilkin pilləsi onun qeydiyyatından başlayır. Bizdə qeydiyyatməsələsi bəzən aylarla uzana bilirdi. Ölkə rəhbərliyinin apardığı uğurlu siyasətin nəticəsidir ki, bir pəncərə prinsipinin tətbiqindən sonra hüquqi şəxsin qeydiyyat müddəti 3 günədək qısaldılmış, hazırda isə elektron şəkildə qeydiyyatdan keçmək mümkündür və hansısa instansiyalara gedib vaxr itirmək lazım gəlmir.

Özündə minlərlə sahibkarlıq subyektini, o cümlədən 70-ə qədər assosiasiya və birlikləri birləşdirən Azərbaycan Sahibkarlar Konfederasiyası bu tədbirlərin uğurla həyata keçirilməsi istiqamətində öz qüvvə və imkanlarını səfərbər etmişdir.

Son illərdə orta və kiçik sahibkarlıq inkişaf etməyə başlayıb, regionlara sərmayə qoyuluşları artıb və hesab edirəm ki, hazırda aparılan böyük dəyişikliklər öz müsbət nəticəsini verəcək. Cənab prezient də bütün çıxışlarında sahibkarlığa xüsusi önəm verir. Azərbaycanın ixrac potensialının artmasında və emal sənayesinin inkişafında, eləcə də digər sahələrdə artım davam edir. Sahibkarların təşkilatlanması da sürətlənib, hər gün bir yeni assosasiyanın yarandığını eşidirik. Assosiasiyalar həm sahələr, həm də regionlar üzrə qurulur. Sahibkalardan ibarət ölkələrarası palatalar yaradılır.

Beynəlxalq Əmək Təşkilatının baş katibi Qay Rayderin iştirakı ilə bu yaxınlarda Azərbaycanda keçirilən konfransa qatılan iştirakçı ölkələrin marağını və göstərilən diqqəti nəzərə alaraq deyə bilərəm ki, azərbaycanlı sahibkarlar artıq nüfuzlu və inkişafda olan bir sinifdir. Azərbaycan Sahibkarlar Konfederasiası da öz növbəsində bu təşkilatlanmaya dəstək verir və inanıram ki, qarşıdakı illər sahibkarlarımız üçün daha uğurlu olacaqdır.

***- Məmməd müəllim, sahibkarlara dövlət tərəfindən güclü dəstək verildiyini qeyd etdiniz. Bu dəstək əsasən nədən ibarətdir?***

- Biznes və investisiya mühitinin yaxşılaşdırılması ilə bağlı həyata keçirilən sistemli tədbirlər bu gün xüsusilə böyük əhəmiyyət kəsb edir. Son illərdə sahibkarlığın inkişafı ilə bağlı ölkə Prezidentinin imzaladığı mühüm dövlət sənədləri biznes mühitinin yaxşılaşdırılması istiqamətində keyfiyyətcə yeni mərhələnin başlanğıcını qoymuşdur.

Belə ki, sahibkarlıq subyektlərində yoxlamalar 2021-ci ilədək dayandırılmış, lisenziya tələb olunan fəaliyyət növlərinin sayı 59-dan 37-yə endirilmiş, lisenziyalar müddətsiz müəyyən edilmiş, dövlət rüsumunun məbləği Bakıda 2 dəfə, regionlarda isə 4 dəfə azaldılıb, lisenziyaların İqtisadiyyat Nazirliyi tərəfindən "ASAN xidmət" mərkəzlərində verilməsinə və "Elektron lisenziya" portalının yaradılmasına başlanılmışdır.

İnvestisiyaların təşviqi və qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı aparılan işlər nəticəsində sözsüz ki, sahibkarlığın daha da inkişafına və xarici investisiyaların cəlb edilməsinə, qeyri-neft ixracının artırılmasına səbəb olacaq və bununla da həm regionların, həm də ümumilikdə qeyri-neft sektorunun inkişafına güclü təkan verəcək.

Dövlət Statistika Komitəsi 2018-ci ilin yanvar-avqust ayları üzrə ölkənin sosial-iqtisadi inkişafını əks etdirən hesabatını açıqlayıb. Hesabatda bildirilir ki, qeyd edilən müddətdə ölkə üzrə 50,5 milyard manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da ötən ilin eyni dövründəkinə nisbətən 0,7 faiz çoxdur. 8 ay ərzində Ümumi Daxili Məhsul istehsalı iqtisadiyyatın qeyri-neft sektorunda 0,9, neft sektorunda 0,4 faiz artmış, sənayenin qeyri-neft sektorunda məhsul istehsalı 10,8 faiz artmışdır.

2018-ci ildə ölkənin xarici ticarət dövriyyəsinin həcmi 17 milyard 774,7 milyon dollar olmuşdur. Ticarət dövriyyəsinin 66,9 faizini ixrac, 33,1 faizini idxal məhsulları təşkil etmişdir ki, bu da 5,9 milyard dollarlıqdan çox müsbət saldo deməkdir. Qeyri-neft məhsullarının ixracında da artım kifayət qədər yüksək olmuşdur. Faktiki qiymətlərlə 13,5, real ifadədə 3,8 faiz artan bu cür məhsulların ixracının ümumi dəyəri 968 milyon dolları üstələmişdir.

Son 15 il ərzində isə ölkə Ümumi Daxili Məhsul istehsalı 3,2 dəfə artıb. Minimal əməkhaqqı 5,2 dəfə, orta əməkhaqqı isə 6,6 dəfə artıb. Ölkədə yoxsulluğun səviyyəsi 49 faizdən 5 faizədək azalıb. Bundan başqa, işsizliyin səviyyəsi 5 faizədək azalıb. Göstərilən dövrdə Azərbaycana 230 milyard dollardan çox investisiya yatırılmışdır ki, bunun da təqribən yarısı xarici sərmayələrin payına düşür. Nəticədə bir sıra vacib layihələr, nəhəng infrastruktur obyektləri tikilib istifadəyə verilmiş, bölgələrdə çoxsaylı yeni sənaye müəssisələri açılmış, iş yerləri yaradılmışdır.

Son illərdə "Pambıqçılığın inkişafı haqqında", "Tütünçülüyün inkişafı haqqında", "İpəkçiliyin inkişafı haqqında" və digər Dövlət Proqramlarının qəbul edilməsi Azərbaycanda kənd təsərrüfatı sahəsində calışan sahibkarların işlərinin təkmilləşdirilməsinə, məhsul istehsalına marağın artırılmasına yönəlmişdir.

İqtisadiyyat Nazirliyi tərəfindən Dövlət Proqramının icrası olaraq, qarşıdakı illər üçün hər bir regionun iqtisadi potensiali və əhalinin məşğulluq səviyyəsi nəzərə alınmaqla ilkin dəyəri 1,5 milyard manat olan 150-dən çox investisiya layihəsi hazırlanıb. Bu layihələrin icrasına Sahibkarlığa Kömək Milli Fondunun güzəştli kreditləri, yerli və xarici investisiyalar cəlb olunacağı gözlənilir.

Qarşıya qoyulan məqsədə çatmaq üçün dövlət tərəfindən iqtisadiyyatın kapitallaşması və kreditləşməsi siyasəti həyata keçirilir.

Son 15 ildə sahibkarlara 2,2 milyard manat güzəştli kredit verilmişdir ki, həmin kreditlərin dəyərləndirilməsi nəticəsində sahibkarlar tərəfindən 163 min yeni iş yeri açılmışdır. Cari ildə dövlət tərəfindən sahibkarlara 170 milyon manat güzəştli kreditlər verilməsi nəzərdə tutulub.

Eyni zamanda, sahibkarların maliyyə resurslarına əlverişli şərtlərlə çıxışının təmin edilməsi üçün layihələrinin ümumi dəyəri 468 milyon manat olan 611 sahibkara geri qaytarılan vəsaitlər hesabına 100 milyon manat güzəştli kredit verilib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,6 dəfə çoxdur. Həmin kreditlər hesabına ötən illə müqayisədə 3 dəfə çox olmaqla 7 mindən artıq yeni iş yerinin açılması imkanı yaranmışdır.

Son illərdə dövlətin güzəştli kreditləri he-

# Azərbaycanda sahibkarlığın inkişafı keyfiyyətcə yeni mərhələyə qədəm qoyur

*Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayevin yap.org.az-a müsahibəsi*

sabına 43 müasir quşçuluq və 25 heyvandarlıq kompleksinin, 39 intensiv bağçılıq təsərrüfatının, 53 logistik mərkəzin 22 taxıl anbarının, 16 meyvə-tərəvəz emalı, 9 süd emalı, 8 ət emalı müəssisəsinin, 28 çörək zavodunun, 46 istixana kompleksinin, 6 yem zavodunun və digər müasir müəssisələrin yaradılması aqrar sektorda dönüşün əldə olunmasına, ixrac potensialının artmasına, idxaldan asılılığın azalmasına, ümumilikdə ərzaq təhlükəsizliyinin möhkəmlənməsinə səbəb olacaq. Ötən il əsas ərzaq məhsulları üzrə özünütəminat səviyyəsi artmaqda davam etmiş, aqrar sahədə 5100 sahibkarlıq subyektinin investisiya layihəsinin maliyyələşdirilməsinə 213 milyon manata yaxın güzəştli kredit verilib.

Sahibkarlığın inkişafı sahəsində həyata keçirilən sistemli tədbirlər nəticəsində "Doing Business 2017" hesabatında Azərbaycan 3 və daha çox islahat aparan 29 ölkədən biri olması, eyni zamanda 138 ölkəni əhatə edən "Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycan ötən illə müqayisədə mövqeyini 5 pillə yaxşılaşdıraraq 40-cı pillədən 35-ci pilləyə yüksəlməsi, Müstəqil Dövlətlər Birliyi məkanında isə əvvəlki illərdə olduğu kimi liderliyini qoruyub saxlaması ölkədə aparılan iqtisadi islahatların bariz nümunəsidir.

Bu gün Azərbaycan iqtisadiyyatının böyük hissəsi - 80 faizdən çoxu özəl sektorda formalaşır. Regional inkişaf proqramları ilə yanaşı, "Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramı", "Sahibkarlığa dövlət maliyyə dəstəyinin göstərilməsi sahəsində əlavə tədbirlər haqqında", "Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun vəsaitinin istifadəsi qaydalarının təkmilləşdirilməsi haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Azərbaycan Respublikasında azad iqtisadi zonaların yaradılması haqqında", "Azərbaycan Respublikasında sahibkarlığın inkişafı ilə bağlı bəzi tədbirlər haqqında", "Sahibkarlıq sahəsində yoxlamaların nizama salınması və istehlakçıların hüquqlarının qorunmasının təmin edilməsinə dair bəzi tədbirlər haqqında", "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə" və digər Fərman və sərəncamların, qanunların, dövlət proqramlarının icrası sahibkarlığın inkişafına təkan vermiş, qeyri-neft sektorunun inkişafını stimullaşdırmışdır.

***- Azərbaycan Sahibkarlar Konfederasiyasının beynəlxalq təşkilatlarla əlaqələri barədə məlumat verməyinizi istərdik.***

- Azərbaycan Sahibkarlar (işəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının sahibkarlarla,dövlət orqanları ilə,yerli qurumlarla birgə işi ilə yanaşı, beynəlxalq qurumlarla o cümlədən Beynəlxalq işəgötürənlər Təşkilatında, Sənayeçilərin və Sahibkarların Beynəlxalq Konqresində üzvlüyü davam etdirməklə, respublikada fəaliyyət göstərən bir çox dövlətlərin və Azərbaycanın xaricdəki səfirlikləri ilə, beynəlxalq təşkilatlarla əməkdaşlığı daha da genişləndirilmişdir.

Beynəlxalq əlaqələrimiz zəngin və çoxşaxəlidir. Azərbaycandakı xarici ölkə səfirlikləri və Azərbaycanın xaricdəki səfirlikləri ilə iş, beynəlxalq təşkilatlar və beynəlxalq maliyyə qurumları ilə əməkdaşlıq, beynəlxalq və ölkələr arası ikitərəfli biznes forum və sərgilərdə iştirak etmək, Azərbaycan Sahibkarlarını beynəlxalq aləmdə keçirilən tədbirlərdə təmsil etmək, Konfederasiya üzvlərinin beynəlxalq sərgi və forumlarda iştirakına yaxından kömək etmək və sair məsələlər beynəlxalq əlaqələrimizin əsas ana xəttini təşkil edir.

Kecən müddət ətzində konkret olaraq Konfederasiyanın Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Biznes Şurasının, Türkdilli Dövlətlər Şurasının tədbirlərinə qatılmış, konfederasiyanın xarici ölkələrdəki yeni nümayəndəliklərinin yaradılması, mövcud olanlarla əməkdaşlığın inkişaf etdirilməsi, bir sıra beynəlxalq təşkilatlar, diplomatik nümayəndəliklər, qeyri-hökumət təşkilatları, biznes qurumların nümayəndələri ilə işgüzar əlaqələr inkişaf etdirilmiş, Konfederasiya "Biznes Konsaltinq" Məhdud Məsuliyyətli Cəmiyyətinin bir sıra xarici biznes qurumlarla əməkdaşlıq əlaqələrinin qurulması və birgə biznes görüşlərin təşkili həyata keçirilmiş, müxtəlif dövlət qurumlarının təşkil etdiyi iclaslarda Konfederasiya təmsil olunmuşdur.

Azərbaycan Sahibkarlar Konfederasiyası ölkəmizin biznes mühiti barədə beynəlxalq aləmə geniş məlumatların verilməsi, ölkələrarası biznes əlaqələrinin genişləndirilməsi sahəsində ardıcıl fəaliyyət göstərməkdədir. Bu istiqamətdə Konfederasiyanın xarici dövlətlərdə açılmış rəsmi nümayəndəliklərinin fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir. Konfederasiyanın artıq 14 xarici ölkədə - Türkiyə, Gürcüstan, Ukrayna, Almaniya, İtaliya, İspaniya, ABŞ, Böyük Britaniya, Bolqarıstan, Moldova, Macarıstan, Çexiya, Polşa, Rusiyanın Kalinqrad vilayətində nümayəndəliyi fəaliyyət göstərməkdədir. Yaxın perspektivdə Niderland. Belçika və İran İslam Respublikalarında da analoji nümayəndəliklərin açılması gözlənilir.

Son illərdə Konfederasiya rəhbərliyi Azərbaycanda fəaliyyət göstərən ölkələrin səfirləri ilə görüşmüş, ölkələr arasında mövcud iqtisadi əməkdaşlıq imkanlarını müzakirə edilmişdir.

Ümumiyyətlə Konfederasiya beynəlxalq təşkilatlarla, o cümlədən Dünya Bankı, Beynəlxalq Maliyyə Korporasiyası, Avropa Birliyinin Komissiyaları və təşkilatları ilə, Qara Dəniz iqtisadi Əməkdaşlıq Təşkilatının Biznes Şurası ilə əməkdaşlığı daha da genişləndirmişdir.

Qeyd edək ki, son illərdə Konfederasiya daha 3 nüfuzlu təşkilatın - İslam Ticarət, Sənaye və Kənd Təsərrüfatı Palatası, "Dünya Kişik və orta sahibkarlıq Forumu" "İpək yolu" Beynəlxalq təşkilatlarına üzv olmuş və Konfederasiyanın prezidenti kimi "İpək yolu" Beynəlxalq Təşkilatının İdarə Heyəti sədrinin müavini seçilmişəm.

Bunda başqa, Azərbaycan Sahibkarlar Konfederasiyası 2001-ci ildən etibarən Sənayeçilərin və Sahibkarların Beynəlxalq Konqresində təmsil olunur. Bu günlərdə Konqresin şura üzvləri arasında qiyabi səsvermə keçirilmiş, Sesvermə nəticəsində Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti kimi məni dördüncü dəfə Sənayeçilər və Sahibkarların Beynəlxalq Konqresi Şurası sədrinin müavini vəzifəsinə seçmişlər. Bu fakt beynəlxalq təşkilatlar tərəfindən bizim təşkilata göstərilən böyük etimadın təzahürüdür.

Qeyd edim ki, son illər Konfederasiya ölkəmizdə və dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən təşkilatlarla, o cümlədən İşəgötürənlər Təşkilatları və Assosasiyaları ilə 80-dən çox Əməkdaşlıq Müqaviləsi imzalamışdır. Bu müqavilələr ölkələrimiz arasında biznes əlaqələrinin genişlənməsi və daha səmərəli nəticə verməsi istiqamətində mühüm rol oynayır.

Cari il ərzində Azərbaycan sahibkarlarının xarici ölkələrə investisiya yatırması istiqamətində Konfederasiya əməkdaşları tərəfindən araşdırmalar aparılmış, bu günədək imzalanan əməkdaşlıq müqavilələri sayəsində faydalı əməkdaşlıq imkanları yaranmışdır.

Beynəlxalq əlaqələrimizin bundan sonra daha da genişləndirilməsini planlaşdırırıq. Hesab edirik ki, bu yolla azərbaycan sahibkarlarının istehsal etdiyi məhsulların dünya bazarına cıxarılması, ölkəyə yeni texnologiyaların gətirilməsi, investisiya yatırımının stimullaşdırılmasına nail olmaq olar.

***- Məmməd müəllim, rəhbərlik etdiyiniz təşkilat azərbaycan sahibkarlarının potensialını səfərbər etmək üçün hansı addamları atır?***

- Hesab edirik ki, qarşıdakı illərdə qeyri-neft sektorunun inkişafında, bu sahədə istehsal və ixrac potensialının artırılmasında qeyri-neft sənayesi əhəmiyyətli rol oynayacaq. Növbəti illərdə sənayenin inkişafına dövlət dəstəyi tədbirləri daha da gücləndiriləcək, yeni istehsal sahələrinin yaranması və rəqabətqabiliyyətli məhsul istehsalının artırılması diqqət mərkəzində saxlanılacaq.

Qeyri-neft sektorunun son 15 ildə orta illik artım tempi 8,1 faiz olmuş, 2017-ci ildə qeyri-neft sektorunda 2,7 faizlik iqtisadi artım müşahidə edilmişdir. 2003-cü ildə Ümumi Daxili Məhsulda özəl sektorun payı 74 faiz olmuşdursa, 2018-ci ildə bu rəqəm 83 faizi ötüb. Məşğulluqda qeyri-neft sektorunun payı 2003-cü ildə 68 faiz idisə, 2018-ci ildə 73 faizə çatıb. Bu müddətdə Azərbaycanda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayı 4,2 dəfə, hüquqi şəxslərin sayı 1,9 dəfə, kiçik müəssisələrin sayı 2 dəfə, fərdi sahibkarların sayı isə 5 dəfə artıb.

Dövlət statistika komitəsinin məlumatına əsasən 2018-ci il avqustun 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 1,2 faiz artaraq 1,5 milyonnəfər olmuşdur ki,onlarınəsas hissəsi qeyri-dövlət sektorunda fəaliyyət göstərir.

Göründüyü kimi, son illərdə ölkəmizdə makroiqtisadi sabitlik, davamlı və dayanıqlı iqtisadi inkişaf təmin olunmuş, əlverişli biznes və investisiya mühiti yaradılmışdır. Məhz bunun nəticəsidir ki, hazırda Azərbaycan Respublikası sosial-iqtisadi inkişaf tempinə görə dünyada öncül yerlərdədir.

Azərbaycanın dünya bazarına ixrac olunan məhsullarına böyük maraq heç kəsə sirr deyil. Ona görə də ölkədə istehsal edilən məhsulların rəqabət qabiliyyətinin artırılması və dünya miqyasında brendə çevrilməsi üçün iri investisiyaların ayrılmasına ciddi ehtiyac duyulur və bu istiqamətdə mühüm tədbirlər həyata keçirilir.

Statistik məlumatlara əsasən 2018-ci ilin yanvar-iyul aylarında Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 170 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmiş, 101 ölkəyə məhsul ixrac olunmuş, 162 ölkədən idxal olunmuşdur.

Azərbaycan Sahibkarlar Konfederasiyası da ölkə sahibkarlarını təmsil edən bir təşkilat olaraq həm əldə etdiyimiz uğurları dəyərləndirir, həm də müasir çağırışları dərindən təhlil edir.

Konfederasiya sahibkarların problemlərini həll edilməsində, onların maariflənməsində daima maraqlıdır. Eyni zamanda regionlarda sahibkarlığın inkişafının sürətləndirilməsi üçün onların təşkilatlanmasına çalışır.

Konfederasiya öz fəaliyyətini daha da canlandırmalı, müasir dövrün tələbləri ilə uyğunlaşan iş ahənginə malik olmalıdır.

Azərbaycan Sahibkarlar Konfederasiyası bununla bağlı silsilə və ardıcıl tədbirlər həyata keçirir. Bu, istər qanunvericilik aktlarının təkmilləşdirilməsi, istər sahibkarlıq subyektlərinin problemlərinin öyrənilib əlaqədar təşkilatlar tərəfindən onların həllinə nail olunması, istərsə də sahibkarların maarifləndirilməsi işinin daha da dərinləşdirilməsi ilə bağlıdır.

Biz sahibkarlar Konfederasiyası olaraq Azərbaycanın tərəqqisi, xalqımızın firavan gələcəyi naminə, ölkə Prezidenti tərəfindən müəyyənləşdirmiş vəzifələrin icrasında fəal iştirak edəcək, Azərbaycan dövlətinin qarşımızda qoyduğu hədəflərə catmaq üçün bundan sonra da əzmlə çalışacağıq.

## Bal yarmarkasına 371 sahibkardan 150 ton süzmə bal daxil olub

***XIX arıçılıq məhsullarının sərgi-satış yarmarkasına 371 sahibkardan 150 ton süzmə bal daxil olub. AZƏRTAC xəbər verir ki, bu barədə Kənd Təsərrüfatı Nazirliyinin nümayəndəsi Asəf Ömərov oktyabrın 4-də Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi və Azərbaycan Arıçılar Assosiasiyasının birgə təşkil etdiyi arıçılıq məhsullarının sərgi-satış yarmarkasına həsr olunmuş mətbuat konfransında deyib.***




Yarmarkaya gətirilən balın 5 tonu çərçivə halındadır. Daha çox arı məhsulları Astaradan və Aran iqtisadi rayonundan daxil olub. Qida Təhlükəsizliyi Agentliyinin şöbə müdiri Qalib Əbdüləliyev 3974 bal nümunəsinin ekspertizadan keçirildiyini və təqribən 900 nümunənin keyfiyyətsiz olduğunun aşkar edildiyini söyləyib. Qeyd edək ki, arıçılıq məhsulları yarmarkası oktyabrın 5-dən 28-dək Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski prospekti, 10 ünvanında (Tofiq Bəhramov adına Respublika Stadionunun ərazisi) keçiriləcək.

# Əmək bazarında peşə təhsilinə ehtiyac varmı?

***Müasir dövrümüzdə Azərbaycan gənclərinə dövlət səviyyəsində ayrılan böyük diqqət onların ölkənin sosial-iqtisadi, elmi-mədəni, təhsil və digər sahələrdə daha fəal iştirakının təmin edilməsinə şərait yaradıb. Cəmiyyətin maraqlarının təmin edilməsi və ölkə iqtisadiyyatının rəqabətə davamlılıq qabiliyyətinin artırılması üçün gəncliyin innovativ potensialından geniş istifadə olunması diqqətdə olan məsələlərdəndir.***



### PEŞƏ-İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNDƏ ÖLKƏ İQTİSADİYYATININ PRİORİTET İSTİQAMƏTLƏRİNƏ ƏSASƏN, YENİ İXTİSASLAR ÜZRƏ KADRLAR HAZIRLANIR

Gənclərin gələcəyin tələblərinə cavab verən təhsilə yiyələnmələri üçün imkanların yaradılması da dövlət-gənclər siyasətinin prioritet istiqamətlərindəndir. Bu məsələ ilə bağlı "SƏS" qəzetinə açıqlama verən millət vəkili Kamilə Əliyeva bildirdi ki, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi"ndə ixtisaslı kadrlar hazırlayan peşə təhsili sisteminin ölkədə əmək bazarının tələblərinə uyğun təhsil proqramları əsasında inkişaf etdirilməsi mühüm məqsəd kimi əksini tapır: "Əmək bazarının real tələbləri nəzərə alınaraq qısamüddətli, çevik tədris proqramları əsasında işaxtaran və işsiz əhalinin peşə hazırlığına, yenidən hazırlığa, eləcə də, peşə təhsilinə cəlb edilməsi və təhsilini başa vurduqdan sonra onların münasib işlə təmin olunması həyata keçirilir. Bildiyiniz kimi, "Peşə təhsili haqqında" 2018-ci ildə Milli Məclis tərəfindən Qanun layihəsi qəbul edildi. Bu cəmiyyət tərəfindən bir sifariş idi. Təhsilin pillələri üzrə ən əsas layihə deyərdim ki, peşə təhsilidir. Orta məktəbi bitirdikdən sonra ali məktəblərə qəbul olunmayanların taleyi bilinmirdi. "Azərbaycanda peşə məktəblərinin yaradılması prosesi daha da sürətlə getməlidir" - deyən Azərbaycan Prezidenti Cənab İlham Əliyev çıxışlarının birində kadr hazırlığı məsələlərinin böyük əhəmiyyət daşıdığını vurğulayaraq, buna böyük ehtiyac yarandığını qeyd etmişdir".

Millət vəkilinin sözlərinə görə, müasir dövrün tələblərinə uyğun olaraq, xüsusən, kənd təsərrüfatı sahəsində peşə sahiblərinə ehtiyac olduğundan ölkəmizdə dövrün tələblərinə uyğun olaraq müxtəlif sahələr üzrə kənd təsərrüfatı, sənaye və turizm sahələri üzrə peşə təhsili var. Kənd təsərrüfatı mütəxəssisləri, aqronomlar və s. peşələr üzrə kadrlar hazırlanır. Üzümçülük, pambıqçılıq, maldarlıq kimi sahələrlə bağlı peşə məktəblərində gənclərimiz təhsil alırlar.

Millət vəkili bildirdi ki, əmək bazarının tələbatının təmin edilməsi ilə əlaqədar peşə-ixtisas təhsili müəssisələrində ölkə iqtisadiyyatının prioritet istiqamətlərinə və işəgötürənlərin sifarişlərinə əsasən, yeni ixtisaslar üzrə kadrlar hazırlanır. "Suvarma sistemlərinin operatoru", "Soyuducu qurğularda məhsulların saxlanması və anbarlanması üzrə operator", "Ağac nəqqaşı", "Quru inşaat və suvaq işləri ustası", "Daşdoğrayan maşın operatoru", "Heyvandarlıq mütəxəssisi" və s. belə ixtisaslardandır. Regionlarda ənənəvi kənd təsərrüfatı sahələrinin inkişafı və kənd əhalisinin məşğulluğunun təmin edilməsi məqsədilə uzun illər tədris olunmayan "Pambıqçı", "Baramaçı", "Tütün ustası" kimi ixtisasların tədrisinə də başlanılıb.

Görülən işlərin əhəmiyyətinə nəzər salaraq, peşəkar işçilərin əmək bazarında işlə təmin olunduqlarını qeyd etdi.K.Əliyevanın sözlərinə görə, peşə təhsili olmayan, hətta peşəkar insanlar bu gün əmək bazarına çıxa bilmirlər. Hətta ali təhsilli mütəxəssislər belə, dövrün tələbini nəzərə alaraq, peşə təhsili almaq iqtidarındadırlar.

### MÜXTƏLİF PEŞƏ SAHİBLƏRİNƏ ƏMƏK BAZARINDA KİFAYƏT QƏDƏR EHTİYAC VAR

Bakı şəhəri Nizami rayonu 4 nömrəli Peşə Liseyinin kadrlar şöbəsinin inspektoru Südabə Qafarova isə açıqlamasında "Peşə liseyinin gənclərin məşğulluğunun təmin olunmasında rolu nə dərəcədədir" sualına aydınlıq gətirərək bildirdi ki, burada təhsil alanlar qısa müddətdə yeni bir peşə vərdişi əldə edir və ona uyğun da daha asan iş tapır: "Peşə liseyinə üz tutan gənclərin sayı bu gün artmaqdadır. Onların peşələrə yiyələnməsinə lazımı şərait mövcuddur. Kurslarda kompüter, elektrik mantyoru, qaynaqçı, məişət cihazlarının ustası və s. kimi peşələr öyrədilir. Kurslar həm ödənişli, həm ödənişsizdir. Onların işlə təmininə gəlincə isə, bildirim ki, əmək bazarına daxil olmağa hazırlaşan gənc işçi qüvvəsinin düzgün peşə yönümünün, təhsil və karyera seçiminin dəstəklənməsi yönündə tədbirlər görülür. Gənclərimiz buranı bitirdikdən sonra öz peşələrinə uyğun olaraq çalışırlar. İndi bu peşələrə əmək bazarında ehtiyac kifayət qədərdir".

Bu gün müasir dövrün tələblərinə uyğun olaraq, ölkəmizdə peşə məktəblərinin sayı artmaqdadır. Paytatımızla yanaşı, regionlarımızda olan peşə məktəblərində gənclər müxtəlif peşələrə yiyələnirlər. Apardığımız araşdırmalar zamanı məlum oldu ki, 1 nömrəli Bakı Peşə Liseyində neft və qazçıxarma operatoru, elektrik montyoru, texnoloji qurğuların operatoru, kimyəvi analiz laborantı-əmtəə operatoru, 4 nömrəli Bakı Peşə Liseyində kompyuter üzrə operator, radioteleviziya aparatlarının təmiri və xidməti üzrə mexanik, modelçi-dərzi, mühasib-fərdi kompüter operatoru, 2 nömrəli Bakı Peşə Liseyində xarrat, dülgər, parket ustası üzrə kadrlar hazırlanır. Bu və ya digər peşəyə yiyələnən gənclərə əmək bazarında tələbat böyükdür.

***Zümrüd BAYRAMOVA***

## Əməkdar jurnalist Flora Xəlilzadənin 65 illiyi qeyd olunub

Oktyabrın 4-də Beynəlxalq Mətbuat Mərkəzində Azərbaycan Mətbuat Şurasının təşkilatçılığı ilə Əməkdar jurnalist Flora Xəlilzadənin anadan olmasının 65 illik yubileyinə həsr olunan tədbir keçirilib. AZƏRTAC xəbər verir ki, Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov tədbirdə çıxış edərək Flora Xəlilzadənin Azərbaycan mediasında sahib olduğu önəmli rolu qeyd edərək onun yaradıcılığına nəzər salıb.

Milli Televiziya və Radio Şurasının sədr müavini, "Kaspi" qəzetinin təsisçisi Sona Vəliyeva çıxışında bildirib ki, Flora Xəlilzadə jurnalistikada öz dəstxətini yaradıb. Bu, hər insana nəsib olmur. Flora Xəlilzadənin özünəməxsus yazı forması var. Gənc jurnalistlər hər zaman belə insanlardan nümunə götürməlidirlər.

Prezident yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli F.Xəlilzadənin Azərbaycan jurnalistikasının inkişafı istiqamətində gördüyü işlərdən bəhs edib. Bakı Dövlət Universitetinin jurnalistikanın nəzəriyyəsi və



təcrübəsi kafedrasının müdiri Cahangir Məmmədli Flora Xəlilzadənin hələ tələbəlik illərindən bilikli, istedadlı bir insan olduğunu deyib.

Daha sonra Mədəniyyət Nazirliyinin nümayəndəsi nazir Əbülfəs Qarayevin Flora Xəlilzadəyə ünvanlandığı təbrik məktubunu oxuyub.

Tədbirdə Milli Məclisin deputatları Hikmət Babaoğlu, Məlahət İbrahimqızı, jurnalist, siyasi ekspert Elçin Mirzəbəyli, Azəri-Türk Qadınlar İctimai Birliyinin sədri Tənzilə Rüstəmxanlı və digər çıxış edənlər yubilyarla bağlı fikirlərini bölüşüblər. Sonda çıxış edən Əməkdar jurnalist Flora Xəlilzadə onun yaradıcılığına verilən qiymətə görə minnətdarlığını bildirib.

## Hikmət Babaoğlu: "Avropa Parlamenti Teoxarus haqqında ciddi cəza tədbirləri görməlidir"



"Avropa Parlamentinin üzvü Eleni Teoxarus artıq birinci dəfə deyil ki, Azərbaycanın işğal edilmiş ərazilərinə səfər etməklə Ermənistanın işğalçılıq siyasətini dəstəklədiyini nümayiş etdirir. Lakin avropalı parlamentari öz fəaliyyətində beynəlxalq hüquqa əsaslanmalı olduğunu dərk etməli, belə məsuliyyətsiz hərəkətlərlə həm özünün, həm də təmsil etdiyi Avropa Parlamentinin beynəlxalq nüfuzuna zərbə vurduğunu bilməlidir". Bu fikirləri SİA-ya açıqlamasında "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu deyib.

O bildirib ki, etnik separatizmin dəstəklənməsi Avropa Birliyinə üzv olan bütün ölkələr tərəfindən rədd edilir və bu, beynəlxalq hüquqla o cümlədən Avropa dəyərləri ilə əsaslandırılır: "Bu yaxınlarda fəsadları hələ də davam edən Kataloniya hadisələri zamanı biz katalon separatçılarına qarşı Avropa strukturlarının hamısının necə yekdil mövqedən çıxış etdiklərinin şahidi olduq. Belə mövqe təqdirəlayiqdir və istənilən ölkəyə münasibətdə tətbiq edilməsi bir nümunədir. Ancaq təəssüf ki, bəzi hallarda biz bunu müşahidə edə bilmirik.Yaxşı olar ki, eyni mövqe Dağlıq Qarabağ separatçılarına qarşı da ortaya qoyulsun. Ancaq Avropa Parlamentinin üzvü Eleni Teoxarus Azərbaycanın işğal edilmiş ərazilərinə səfər edir, etnik separatçılığı dəstəkləyən qızışdırıcı mövqedən çıxış edir. Avropa Parlamenti isə bütün bunlara nə vaxtsa keçmişdə kiçik bir xəbərdarlıq etməklə münasibət bildirir. Belə hallar yolverilməzdir və Azərbaycanla AB arasındakı münasibətlərin ruhuna ziddir".

H.Babaoğlu qeyd edib ki, AP üzvünün səfərləri avropalı erməni lobbiçiləri tərəfindən maliyyələşdirilir ki, bu da ayrıca hüquq pozuntusudur: "Bəzən olmayan hadisəyə görə ittiham edilən parlamentarilərdən fərqli olaraq Teoxarusa heç bir cəza növü tətbiq edilmir. Bu hüquqla siyasi manipulyasiya etməkdir. AB-yə üzv olan və bu təşkilatla yaxın əməkdaşlıq olan ölkələr hüquq qarşısında bərabər olmalıdırlar. Hər hansı bir ölkənin ərazi bütövlüyü daha çox qiymətli, başqa bir dövlətinki daha az qiymətli ola bilməz. Bu, qeyri-bərabərlik və ədalətsizlikdir. Ona görə də Avropa Parlamenti öz üzvü haqqında nizamnaməsinə uyğun olaraq ciddi cəza tədbirləri görməlidir".

## Təhsil nazirinin müavini: "Azərbaycanda təhsil sistemində 145 mindən çox müəllim çalışır"



Azərbaycanda təhsil sistemində 145 mindən çox müəllim çalışır. Təkcə bu il müəllimlik ixtisası üzrə keçirilmiş mərkəzləşdirilmiş imtahanda iştirak etmək üçün 51 mindən çox müraciət qeydə alınıb. Onlardan 4083-ü yüksək nəticə göstərərək daimi əsaslarla müəllim vəzifəsinə qəbul olunub. AZƏRTAC xəbər verir ki, bunu təhsil nazirinin müavini, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri vəzifəsini icra edən Məhəbbət Vəliyeva oktyabrın 4-də jurnalistlərə müsahibəsində deyib. M.Vəliyeva qeyd edib ki, 2 mindən çox müəllim bu tədris ilində müddətli müqavilə əsasında məktəblərdə işləyir. Bu il universitetlərin pedaqoji ixtisaslarına 2 min 90 tələbə 500-dən yuxarı bal toplayaraq qəbul olub. Bunun özü bir daha müəllimlik peşəsinə artan marağın göstəricisidir. Bu da təsadüfi deyil. Çünki hər il ölkəmizdə yeni-yeni məktəb binaları tikilir, əsaslı təmir olunur, müasir tələblərə cavab verən maddi-texniki baza yaradılır. Bütün bunlar ölkəmizdə həyata keçirilən təhsil siyasətinin real nəticələridir.

# Erməni sevdalı korrupsionerlər "siyasi cərrah" obrazında

## *Avropa Parlamentinin mandatı imtiyaz deyil, məsuliyyətdir*

***Dağlıq Qarabağ münaqişəsinin başladığı ilk gündən ermənilərin azərbaycanlılara qarşı törətdiyi qanlı əməllərə haqq qazandırıb, işğalçılığı "azadlıq mübarizəsi" adlandıranlar "erməni sevdalıları" kimi tanınır və belə şəxslərin erməni lobbisi tərəfindən maliyyələşdirildiyi də sirr deyil. İndi ermənidən betər "erməni" olanları təkcə Azərbaycan cəmiyyəti deyil, bütün dünya ictimaiyyəti çox yaxşı tanıyır.***



Ermənilərin separatçılıq və etnik təmizləmə siyasətini dəstəkləyən, Azərbaycana düşmən kəsilən, eləcə də ədalətə, həqiqətə, qanunlara, insanlığa düşmən olanlardan biri də Avropa Parlamentinin üzvü Eleni Teoxarusdur. O, həmin Teoxarusdur ki, bütün fəaliyyəti Avropa Parlamentinin, eyni zamanda, Avropa İttifaqının da siyasətinə, həmçinin mövqeyinə belə ziddir. Xanım parlamentari Avropa institutlarına və Avropa dəyərlərinə zidd mövqeyi ilə, xüsusilə seçilir. Təsadüfi deyil ki, Avropa Parlamentinin Kipr Respublikasından olan bu üzvü işğal edilmiş ərazilərimizə dəfələrlə qanunsuz səfərlər etməsi səbəbindən, Azərbaycana "girişi arzu olunmayan şəxslər siyahısı"na daxil edilib. Cinayət Məcəlləsinin müvafiq maddələri ilə barəsində cinayət işi açılan Teoxarusun kimliyi barədə araşdırma apardıqda tükürpədici məqamlar diqqəti cəlb edir.

### Eleni Teoxarusun siyasi baxışları, eləcə də fəaliyyəti onun Ermənistanla və erməni diasporu ilə olan əlaqələrini təsdiq edir

Radikal millətçi baxışları ilə seçilən bu deputat "Kipr Respublikasını xilas edək" şüarı altında fəaliyyət göstərir və əsas hədəfi, məhz anti-Türkiyə istiqamətində fəaliyyətdir. Parlament üzvlərinin Avropa Komissiyasına yazılı suallarla müraciət etmək prosedurundan, imkanlarından sui-istifadə edən Teoxarusun komissiyaya ünvanladığı sualların belə əksəriyyəti Türkiyə əleyhinə olub. Ermənilərin Türkiyəyə, eləcə də məskunlaşmasından və hansısa ölkənin vətəndaşlığını daşımasından asılı olmayaraq, bütün türklərə olan barışmaz, düşmənçilik mövqeyini müdafiə edən bu Avropa Parlamenti üzvünün siyasi baxışları onun Ermənistan və erməni diasporu ilə olan əlaqələrini təsdiq edir.

Hələ ötən əsrin 90-cı illərindən Ermənistanın və erməni lobbisinin alətinə çevrilən deputat ölkəmizin işğal olunmuş Dağlıq Qarabağ bölgəsində həkimlik fəaliyyəti çərçivəsində "humanitar missiya" fəaliyyəti altında cərrahiyyə əməliyyatları həyata keçirib və bu xidmətlərinə görə, hətta "Dağlıq Qarabağın şərəf qızıl medalına" layiq görülüb də. Maraqlıdır, xidmətləri dövründə erməni silahlı qüvvələrinin işğalı sayəsində Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətraf rayonlarında yüz minlərlə insanın üzləşdiyi etnik təmizləməyə, 1992-ci ilin 26 fevral tarixində isə Xocalı şəhərində yalnız bir gecədə 600-dən çox mülki azərbaycanlının qətliamına göz yuman həkimin, Hippokrat andı içib bu anda xəyanət etməsində şərəf deyilən bir məqam olmadığı halda, şərəf qızıl medalına layiq görülməsi nə dərəcədə ədalətlidir? Yaxud "humanitar missiya" dedikdə, parlamentari bunun yalnız ermənilərə aid olduğunumu düşünür? Hər halda, dünya ictimaiyyəti onun həmin dövrdə yüzlərlə yaralı azərbaycanlı əsirlərlə bağlı "humanist və peşəkar cərrah" mövqeyini müşahidə etməyib. Əksinə, ictimaiyyət E.Teoxarusun Azərbaycan torpaqlarının separatçı ermənilər tərəfindən işğalı nəticəsində yaradılmış qondarma separatçı rejimin beynəlxalq müstəvidə, xüsusilə də, Avropa Parlamenti çərçivəsində təşviq etməsini müşahidə edib.

### Separatçılıq və etnik təmizləməni təşviq edən parlamentarilərin fəaliyyətindən korrupsiya qoxusu gəlir

Qanlı separatçılıq və etnik təmizləməni təşviq edən Eleni Teoxarus kimi Avropa Parlamentinin nümayəndələri qanunun aliliyinə hörmət etmir və həmçinin, təmsil etdiyi qurumun mövqeyindən də çıxış etmir. Əksinə, erməni lobbisinin və diasporunun siyasətini həyata keçirirlər. Parlamentarilərdən Avropa Parlamentinin üzvü mandatından sui-istifadə etməklə həyata keçirilən səfərlər və onların maliyyələşməsi barədə AP-yə müvafiq açıqlama verilməsi tələb olunmalıdır. Söhbət Avropa dəyərlərinin, qanunun aliliyinin və insan hüquqlarının əsas keşikçisi olan Avropa Parlamentinin tam hüquqlu üzvündən gedirsə, hər birinin fəaliyyəti yoxlanılmalı, lazım olan "qiymət" verilməlidir. Hətta Avropa Parlamentinə də sirr deyil və zərrə qədər də şübhə yoxdur ki, bu məsələlərdən bir korrupsiya qoxusu gəlir.

Bir vaxtlar Qarabağdakı cinayətkar rejimin keçirdiyi qondarma "referendum"dan sonra qanunsuz olaraq ərazimizə gələn bir qrup şəxslə, Avropa Parlamentinin 3 deputatı ilə bağlı rəsmi Bakının açdığı cinayət işi hamıya bəllidir. Eləcə də, bu barədə İnterpola göndərilən sorğu barədə də ictimaiyyət məlumatlıdır. Avropa Parlamentinin bu üç deputatı arasında xanım parlamentari də var. Daha dəqiq desək, Yaromir Ştetina (Çexiya) və Frank Engel (Lüksemburq) olan bir siyahıda Eleni Teoxarus (Yunan Kipri) da yer alır. Məsələ burasındadır ki, bu siyahıya daxil olanların heç biri Qarabağa səfərinin Ermənistan tərəfindən maliyyələşdirildiyini etiraf etməkdən belə çəkinmirlər. Bu fakt isə özü-özlüyündə Avropa Parlamenti üzvünün etik davranış qaydasını kobud şəkildə pozması və maraqların toqquşmasına yol verməsi deməkdir. Barəsində cinayət işi açılandan sonra Ştetina ona ayrıca qonarar da verildiyini etiraf edirsə, deməli, "demokratiya" adı altında Azərbaycana qarşı aparılan təbliğatın və qondarma rejimi təşviq etmənin arxasında sırf maddi maraq və korrupsiya elementləri durur. Görünür, bu parlamentarilərə xatırladılmayıb ki, onlara mandat qanunsuzluq, lobbizm və dezinformasiya ilə məşğul olmaq üçün verilməyib. Xatırladılmayıb ki, Avropa Parlamentinin mandatı imtiyaz deyil, məsuliyyətdir.

Bakı şəhərindən balaca, Azərbaycanın hakim partiyası olan YAP-ın üzvlərinin sayından az, yəni cəmisi 500 min əhalisi olan Lüksemburq təmsilçisi Frank Engel də bu üçlüyə daxildi. Ona da sual oluna bilər ki, Avropa qurumlarında Azərbaycan əleyhinə təşkil edilən tədbirlərə, erməni lobbisinin müxtəlif aksiyalarına hansı vəsaitlərlə qatılır? Eləcə də, Eleni Teoxarusun illərdir ki, qondarma "erməni soyqırımı"nın tanınması üçün əldən-ayaqdan getməsi "konyak diplomatiyası"nın, yaxud korrupsiyanın təzahürü deyilmi?

### Avropa dəyərlərinin, qanunun aliliyinin və insan hüquqlarının əsas keşikçisi olan Avropa Parlamenti kimi bir təşkilatın nüfuzu təhlükə altındadır

Maddi marağın və tamahın müqabilində Avropa Parlamenti kimi qurumu manipulyasiya və lobbizm obyektinə çevirməyə nə ad vermək olar? Bu manipulyasiya, ilk növbədə, avropalı seçicilərə və Avropa strukturlarına qarşı hörmətsizlik, qanunun aliliyinə etinasızlıq deyilmi? Avropa Parlamentinin etik komitəsi bu "erməni sevdasını", türk millətinə mənsub olanlara qarşı radikal mövqeyi ilə seçilənləri, ölkəmizin həqiqətlərini örtbasdır edənləri, anti-Avropa siyasətinin köklərini, anti-Azərbaycan siyasətinin isə motivlərini dərhal və dərindən araşdırmalıdır.

Avropa Parlamentində erməni diasporunun yaratdığı korrupsiyanın ciddi şəkildə araşdırılmasının, ümumilikdə, korrupsiya fəaliyyətinə hüquqi qiymət verilməsinin çoxdan artıq vaxtı çatıb və bu araşdırmaya böyük bir ehtiyac var. Özü də, ilk növbədə, AP kimi bir qurumun özü üçün. Çünki bütün bunlar Avropa İttifaqının siyasətinə zidd olmaqla yanaşı, quruma hörmətsizlik deməkdir. Bu isə, nəticə etibarı ilə Avropa dəyərlərinin, qanunun aliliyinin və insan hüquqlarının əsas keşikçisi olan Avropa Parlamenti kimi bir təşkilatın nüfuzunu təhlükə altında qoyur. Bir dövlətin BMT tərəfindən tanınmış sərhədini pozmaq konkret cinayətdir və yaxşı olardı ki, Avropa Parlamenti Eleni Teoxarus kimi parlamentarilərlə bağlı ölçü götürsün və öz üzərindəki "erməni konyakı" ləkəsini təmizləsin.

***İnam HACIYEV***

# Naxçıvan səhiyyəsində daha bir ilkə imza atılıb

Naxçıvan Muxtar Respublika Xəstəxanasının cərrahiyyə şöbəsinin həkimləri Səfər Qədimov və Həbib Məmmədov tərəfindən muxtar respublika səhiyyəsində ilk dəfə laparoskopik total histerektomiya əməliyyatı həyata keçirilib. Hazırda həkim nəzarəti altında olan xəstə tam sağalmaq üzrədir.



Muxtar respublikanın Səhiyyə Nazirliyindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, laparoskopik total histerektomiya müasir ginekoloji cərrahiyyənin zirvəsi, ən son nailiyyəti hesab olunur. Açıq abdominal histerektomiya əməliyyatı ilə müqayisədə laparoskopik histerektomiya qan itkisinin azlığı, əməliyyatın davametmə və stasionar müalicə müddətinin qısa olması, xəstələrin normal həyat tərzinə tezliklə qayıtması ilə seçilir. Bu əməliyyatlar az zədəli olur, əməliyyat sonrasında qarın boşluğu bitişmələrinin əmələ gəlməsi aşkar edilmir, piylənmə və şəkərli diabeti olan xəstələr üçün ideal üsul sayılır.

Əməliyyatın icraçılarından olan gənc həkim Həbib Məmmədov 2015-ci ildə Azərbaycan Tibb İnstitutunun pediatriya fakültəsini bitirib. Həmin ildən Naxçıvan Muxtar Respublika Xəstəxanasının cərrahiyyə şöbəsində həkim-rezident kimi fəaliyyətə başlayıb. Cari ilin iyul-sentyabr aylarında Türkiyə Respublikasının Kocaeli Universitetinin xəstəxanasında laparoskopiya üzrə kurs keçib.

Digər həkim Səfər Qədimov isə Naxçıvan Muxtar Respublika Xəstəxanasında əməliyyat blokunun müdiridir. Təcrübəli mütəxəssis bu xəstəxanada çalışdığı üç il ərzində onlarla xəstənin həyatını xilas edib. O, Naxçıvan səhiyyəsinin təcrübəli cərrahlarından biri kimi fəaliyyət göstərir. Son illər müayinə və müalicə proseslərində ilklərə imza atılması naxçıvanlı həkimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi istiqamətində aparılan məqsədyönlü tədbirlərin məntiqi nəticəsidir. Tibb mütəxəssislərinin bilik və bacarıqlarının daim yüksəldilməsi üçün müvafiq mexanizmlər yaradılır, o cümlədən xarici ölkələrdə təlimlər təşkil edilir. Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin sertifikasiyasının aparılması, səhiyyə işçilərinin müasir elmi biliklərinin artırılması üçün müxtəlif profilli elmi-praktik seminar və konfransların təşkili diqqət mərkəzində saxlanılır. Nəticədə, yerli həkim kadrları tərəfindən müstəqil şəkildə TUR, ürək damarlarına stend qoyulması, laparoskopik, lor, göz və digər mürəkkəb cərrahiyyə əməliyyatlarının aparılması, o cümlədən açıq ürək əməliyyatlarının da Naxçıvanda keçirilməsi əhalinin müayinə və müalicə üçün başqa ölkələrə üz tutmasının qarşısını alıb.

# Səfir: "İtaliya Senatının sədri bu ay Azərbaycana gələcək"



Hazırda Azərbaycan-İtaliya münasibətləri çox yüksək səviyyədədir. Biz əlaqələrimizi yalnız Avropa və İtaliya üçün vacib olan enerji məsələləri üzərində qurmamışıq, Azərbaycan ilə İtaliya arasındakı münasibətlər çoxşaxəlidir. Siyasi sahədəki əlaqələri xüsusi vurğulamaq lazımdır. Bu fikirləri AZƏRTAC-a müsahibəsində İtaliyanın Azərbaycandakı səfiri Auqusto Massaridi deyib.

Səfir bu ilin iyul ayında Prezident Sercio Mattarellanın Azərbaycana, ötən həftə Birinci vitse-prezident Mehriban Əliyevanın İtaliyaya rəsmi səfərlərinin, keçirilən yüksək səviyyəli görüşlərin əhəmiyyətini qeyd edib. O bildirib ki, yüksək səviyyəli qarşılıqlı səfərlər zamanı müxtəlif sahələrdə əməkdaşlıqla bağlı danışıqlar aparılıb. Belə yüksək səviyyəli səfərlər əməkdaşlığın genişləndirilməsi üçün yeni imkanlar açır. Auqusto Massaridi deyib ki, oktyabrın 17-də İtaliya Respublikası Senatının sədri xanım Maria Elisabetta Alberti Kasellati Azərbaycana rəsmi səfər edəcək. Üç gün davam edəcək səfər zamanı bir sıra vacib görüşlərin keçirilməsi planlaşdırılır.

# Mühacir biznesinin "kralı"

## Və ya iblis xislətinə malik Əli Kərimli heç vaxt düzəlməyəcək



***"Qozbeli qəbir düzəldər" atalar sözü AXCP sədri Əli Kərimlidən çoxdan yan keçib. Çünki onun "siyasi karyerası"na nəzər salmaq kifayətdir ki, insan olmadığına tam əmin olaq.***

Uzun illərdir dağıdıcı müxalifətin "lider" kreslosunu zəbt edərək, pafoslu çıxışlarla özünü "demokrat" kimi təqdim etməyə çalışan AXCP sədri Ə.Kərimlinin hansı "yuvanın quşu" olduğunu izah etməyə ehtiyac duymuruq. Faktlar və dəlillər bunu bir daha təsdiqləyir. Bu günlərdə "REAL"ın sədri İlqar Məmmədova qarşı milli xəyanətkarlar statusunu qazananları, yəni Orduxan Teymurxanı, Tural Sadıqlını və Sevinc Osmanqızını öz tərəfinə cəlb etmək yolunu tutaraq, onlara maliyyə vəsaiti ayırdığını deməklə yanaşı, mitinqə çıxanlara xaricə getmək üçün arayış da vəd edib.

### AXCP sədrinin növbəti hiyləsi

Bax, budur AXCP sədri Ə.Kərimlinin iblis oyunu. Şeytanla da "iş birliyi" qurmağa hazır olan və "Yurd" sədri, biznesi çökməsin deyə, təşkil olunacaq mitinqdə iştirak edən adamlara mühacirətə getmək üçün arayış verəcəyini də vəd edir. Ən qəribəsi odur ki, Ə.Kərimli özünü bütün bu faktlardan xəbərsiz kimi göstərməyə çalışır. Ancaq hər kəs bilir ki, bu günə qədər mühacirətə gedənlərin sənədlərində, məhz Ə.Kərimlinin imzası olub. AXCP-nin Xətai rayon şöbəsinin üzvü Tural Hüseynovun (Azərtürk) şikayətini xatırlatmaq kifayətdir. T.Hüseynov müraciətində bildirib ki, 2-3 ay bundan əvvəl, ailəvi olaraq, Avropaya getmək üçün sənəd düzəldən işbaz alverçilərlə əlaqə yaratmağa çalışıb. Az müddət sonra T.Hüseynov Hollandiyada mühacir həyatı yaşayan, "Turan" TV-nin efirində "Cəbhə xətti" verilişinin aparıcısı, özünü "insan haqları müdafiəçisi" kimi tanıdan, AXCP-çilərlə sıx əlaqəsi olan Fikrət Hüseynli ilə əlaqə yaradıb. Qarşı tərəf istəyini həyata keçirmək üçün ondan 5800 dollar pul istəyib. İlk növbədə, tapşırıb ki, pulu avroya çevirsin, T.Hüseynov tapşırılan kimi edib. Lakin Macarıstan səfirliyi ona və həyat yoldaşına viza icazəsi versə də, iki körpə övladına icazə verməyib. Məsələnin uzanmasından və Fikrətin danışdığı yalanlardan cana doyan T.Hüseynov, sonda hər şeydən bezib, Avropaya getmək fikrindən daşınıb və pulunu geri tələb edib.

Göründüyü kimi, "mühacir biznesi" məsələsində AXCP-nin və onun rəhbəri Ə.Kərimlinin adı yenə də "qırmızı xətlə" keçməkdədir.

Bütün bunlara rəğmən, sübutları və faktları təkzib etmək bir yana, "Yurd" sədri həyasızcasına özünə bəraət qazandırmağa çalışması, bir daha onun iblis xislətli olduğunu təsdiqləyir. Ə.Kərimli və ətrafındakı zombi dəstəsi, mənfəətbaz qaragüruhçular bilməlidirlər ki, xalqı bir dəfə, uzağı, iki dəfə aldatmaq olar. Ancaq üçüncü dəfə xalq üzünüzə tüpürəcək. Ancaq inanmırıq ki, bu tüpürcəkdən sonra da xəyanət və satqınlıq nümunəsi olan Ə.Kərimli şeytan əməllərindən əl çəksin.

Göründüyü kimi, əlavə şərhə ehtiyac yoxdur. Çünki tarix və onun canlı şahidləri Ə.Kərimlinin iblis xislətli hiylələrini heç vaxt unutmayacaq. Necə deyərlər, elin gözü tərəzidir və ən böyük tərəzi də, məhz odur.

**R.HÜSEYNOVA**

# Bilik Fondu Belarus səfirliyi ilə əməkdaşlığa başlayır



Oktaybrın 4-də Belarus Respublikasının Azərbaycan Respublikasındakı səfirliyinin baş müşaviri Mixail Karaçun və səfirliyin birinci katibi, konsul İnessa Pavlovskaya Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun qonağı olublar. Fonddan SİA-ya verilən məlumata görə, Fondun icraçı direktoru Oktay Səmədov və əməkdaşları ilə görüşən diplomatlara Bilik Fondunun fəaliyyəti barədə ətraflı məlumat verilib. O.Səmədov bildirib ki, rəhbərlik etdiyi qurumun əsas məqsədi əhalinin elmi-texniki, siyasi-ictimai, sosial-iqtisadi, ekoloji, humanitar biliklərinin artırılması, azərbaycançılıq məfkurəsinin və milli-mənəvi, dini dəyərlərin təbliği, ölkənin daxili və xarici siyasətinin mahiyyətinin ictimaiyyətə çatdırılması, gənclərin elmi biliklərinin artırılması, Azərbaycan elminin dünyada, dünya elminin ölkəmizdə tanıdılmasına xidmət göstərməkdir.

İcraçı direktor beynəlxalq əməkdaşlıq çərçivəsində Fondun gördüyü işlərdən danışaraq, bu günə qədər ölkəmizdəki bir çox səfirlik və diplomatik nümayəndəliklərin təmsilçiləri ilə əlaqələr qurulduğunu, müxtəlif məzmunlu birgə tədbirlər həyata keçirildiyini diqqətə çatdırıb. Qeyd edilib ki, 20-dən çox ölkənin səfirləri Fondun qonağı olublar və bu görüşlərdə beynəlxalq müstəvidə əməkdaşlıq məsələləri müzakirə edilib.

İcraçı direktor Fondun nəzdində fəaliyyət göstərən klublardan söz açaraq, "Tariximizi öyrənək və öyrədək", "Gənc jurnalistlər", "Diplomatlar" Klublarının iş prinsipi, "Qardaşlaşmış məktəblər", "Dünya elmi Azərbaycanda", "Azərbaycan elmi dünyada" layihələri haqqında danışıb, bu layihələrin beynəlxalq əhəmiyyəti barədə qonaqları məlumatlandırıb. Belarus Respublikasının Azərbaycan Respublikasındakı səfirliyinin baş müşaviri M.Karaçun bildirib ki, Belarus Respublikası 2019-cu ildə ikinci Avropa Oyunlarına ev sahibliyi edəcək, Birinci Avropa Oyunları 2015-ci ildə Azərbaycan paytaxtı Bakıda keçirildiyindən ölkəmizin bu sahədə təcrübəsinin öyrənilməsinə ehtiyac var. Qeyd edilib ki, səfirliklə Bilik Fondunun bu istiqamətdə əməkdaşlığı məqsədəuyğun olardı. Qonaqlar dünyanın ən böyük kitabxanaları sırasında Belarus Milli Kitabxanasının özünəməxsus yeri olduğunu vurğulayaraq, 8 milyondan çox kitabın saxlandığı elektron kitabxana ilə ədəbiyyat mübadiləsi aparılmasını təklif ediblər.

Əhalinin maarifləndirilməsi və elmi biliklərinin artırılması sahəsində sıx əlaqələrin qurulması ilə bağlı aparılan fikir mübadiləsindən məmnun qaldıqlarını deyən diplomatlar alim və tədqiqatçı mübadiləsinin, hər iki ölkənin turizm imkanlarının təbliğ olunmasının, mədəniyyət yönümlü birgə tədbirlərin keçirilməsinin əhəmiyyətindən söz açıblar. Sonda Bilik Fondu ilə Belarus Respublikasının Azərbaycandakı səfirliyi arasında fəaliyyət planının imzalanması ilə bağlı razılıq əldə olunub.

# DSX: Xəzər dənizinin Azərbaycana aid hissəsində iki kiloqramdan çox heroin tutulub



Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti (DSX) tərəfindən etibarlı sərhəd mühafizəsinin təmin olunması sahəsində tədbirləri davam etdirilir.

Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, sentyabrın 28-də DSX Sahil Mühafizəsinin texniki müşahidə məntəqələri tərəfindən Astara rayonunun Şahağacı kəndi istiqamətində naməlum üzmə vasitəsi aşkar olunub və onun hərəkəti nəzarətdə saxlanılıb. DSX Sahil Mühafizəsinin həmin istiqamətdə xidmət aparan sərhəd gözətçi gəmisinə göstərilən əraziyə doğru hərəkət etməsi tapşırığı verilib. Eyni zamanda, Astara və Lənkəran rayonları üzrə sahilboyu həssas nöqtələr nəzarətə götürülüb.



Aşkar olunmuş üzmə vasitəsi qısa müddətdə Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub bölməsini tərk edib. Həmin üzmə vasitəsinin ərazi sularımızdakı hərəkət trayektoriyası və koordinatları əməliyyat müşahidəsinə götürülüb. Sentyabrın 30-da 2 nəfər heyət üzvü ilə rejim sularına çıxmış "KƏ-226" bort nömrəli "Mariner-75" mühərrikli taxta qayığın həmin koordinatlara yaxınlaşması müəyyən edilib. Həmin qayıq sahilə yan alarkən sərhədçilərə tabesizlik göstərərək dənizdə sahildən 200 metr məsafədə manevrlər edib, hərəkət zamanı qayıqdan 2 bağlama suya tullanılıb.

Qayığın heyət üzvləri - Astara rayon sakinləri 1977-ci il təvəllüdlü Şabanov Ramin Naib oğlu və 1995-ci il təvəllüdlü Əlizadə Niyaz Rufulla oğlu saxlanılıblar. Qayığın manevr etdiyi koordinatlara baxış keçirilib və dənizə onlar tərəfindən atılmış 2 ədəd bağlama aşkar olunaraq götürülüb. Baxış zamanı bağlamalarda ümumi çəkisi 2 kiloqram 200 qram olan heroin olması müəyyənləşib.

İlkin araşdırma zamanı saxlanılan şəxslər həmin narkotik vasitələrin onlar tərəfindən götürülməsini və sahilə çıxarkən sərhədçilərin keçirdiyi yoxlama zamanı ifşa olunacaqlarından ehtiyat etdikləri üçün dənizə tullamalarını etiraf ediblər. Fakt üzrə zəruri əməliyyat və istintaq tədbirləri davam etdirilir.

# "Nar"-ın "Full" paketlərindən istifadə edən abunəçilərin sayı 40% artıb

***"Nar"-ın təqdim etdiyi "Full" paketlərinin istifadəçilərinin sayı sürətlə artmaqdadır. Sərfəli qiymətə ölkədaxili və şəbəkədaxili dəqiqələr, bol internet və çoxsaylı bonusların daxil olduğu "Full" paketlərindən istifadə edən abunəçilərin sayı son 6 ay ərzində 40 % artıb.***




Abunəçilərin istək və tələblərini hər zaman nəzərə alan "Nar" 6 müxtəlif "Full" paketi təqdim edir. Qeyd edək bu təkliflər arasında abunəçilərin ən çox sifariş etdiyi paket - içərinsində 300 ölkədaxili dəqiqə və 1.5 GB internet olan "Full 9" paketidir.

"Full" paketlərini sifariş edən "Nar" abunəçilərinə internet və dəqiqələri sərfəli qiymətə əldə etməklə yanaşı, ay ərzində topladıqları bonusları növbəti aylara keçirə bilmək imkanı verilir. Bundan əlavə, Azərbaycan mobil rabitə bazarında ilk dəfə olaraq "Full" paketlərinin istifadəçiləri qalıq bonusların dəyişdirilməsi funksiyasından - "Exchange" xidmətindən yararlana bilirlər. Beləki, "Nar" abunəçiləri dəqiqələri meqabaytlara və ya əksinə, meqabaytları dəqiqələrə dəyişə bilmək imkanına sahibdirlər.

"Full" paketləri haqqında ətraflı məlumatı www.nar.az/full internet səhifəsindən öyrənmək olar.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

# Ermənistan yenidən xaosa sürüklənir

**Bu gün Ermənistanda baş verənlərə diqqət yetirsək, görərik ki, artıq işğalçı ölkədə qarşıdurmalar ciddi xarakter alır. Oktyabr ayının 2-dən başlayaraq Ermənistanda parlamentin növbədənkənar seçkilərin keçirilməsini əngəlləyən qanunu qəbul etməsi ilə bağlı aksiyalar başlayıb. Bu isə, ölkənin yenidən xaosa sürükləndiyini göstərməklə, həm də iqtisadi vəziyyətlə yanaşı, siyasi vəziyyətin də gərginləşməsi deməkdir.**

## Paşinyanın tərəfdarları parlamenti mühasirəyə aldı



Sentyabrın ortalarında parlament seçkilərinin gələn ilin ortalarında keçirilməsinin məqsədəuyğun olduğunu bəyan etmiş Paşinyanın belə kəskin dönüş etməsi daxili siyasi gərginliyi artırıb. Paşinyanın hakimiyyətə gəlişinə loyal münasibət bildirən parlament fraksiyaları baş nazirin növbədənkənar seçkilərin keçirilməsində niyə tələsdiyinin səbəblərini dəqiqləşdirməyə çalışır. Hətta Paşinyanın koalisiya ortaqları olan daşnaklar da baş nazirdən bu məsələyə dair ağlabatan izahat tələb edirlər.

6 aya yaxın bir müddət ərzində Ermənistanın baş naziri postunda oturan Paşinyan







bu günə kimi nə siyasi fəaliyyətində, nə də xalqa verdiyi vədində bir irəliləyiş etməyib. Belə olan halda, Paşinyan hakimiyyətini möhkəmləndirmək üçün yeganə yol olaraq, növbədənkənar parlament seçkilərinin dekabrın ilk yarısında keçirilməsini görür. Parlamentdə bu qərara qarşı çıxanlar yenə də əvvəlki kimi zorakılığa məruz qaldılar. Paşinyan Ermənistan parlamentinin binasını mühasirəyə aldırmaqla, növbədənkənar seçki qərarının çıxarılmasına nail olacaq ümidi ilə aksiyanı davam etdirəcəyini bildirib. Artıq parlamentdəki partiyaların fraksiya rəhbərləri növbədənkənar seçkilərin əleyhinə olmadıqlarını bəyan ediblər. Hətta daşnakların lideri Armen Rustamyan bununla bağlı bəyanat verib və onun partiyası koalision hökumətdə təmsil olunan nümayəndələrini geri çağırdığını deyib.

### Paşinyanın növbəti yuxusu nə olacaq?

Paşinyan isə bu bəyanatdan dərhal sonra "Daşnaksyutun" və "Çiçəklənən Ermənistan" partiyalarından olan nazirlərin istefaya göndərilməsi barədə qərar verib. O, mitinqdə hamının gözü qarşısında 6 nazirin istefası barədə əmr imzalayıb.

Siyasi şərhçilər bildirirlər ki, Ermənistanın baş naziri Nikol Paşinyan baş verənləri əks-inqilabi cəhd kimi dəyərləndirir və bu prosesə dəstək verən nazirlərin də haqlı olaraq tutduqları vəzifələrdən uzaqlaşdırıldığını bildirir. Həmçinin, siyasi şərhçilər onu da vurğulayırlar ki, bütünlüklə bu gün Ermənistanda yaşananlar Nikol Paşinyanın rəqiblərinə cavab reaksiyasıdır.

Politoloq Qabil Hüseynli sözügedən məsələ ilə bağlı bildirir ki, bu gün parlamentdə yeni reqlamentin qəbul edilməsi, Paşinyanın istefaya məcbur edilməsi onu göstərir ki, parlamentdə təmsil olunan partiyaların böyük bir qismi, başda Respublika Partiyası olmaqla, ittifaq qurublar: "Onlar mövqe ortaya qoymağa başlayıblar. Əks-tərəfdə Paşinyan küçəni onların əleyhinə qaldırmağa çalışır. Parlamenti mühasirəyə aldırmasının səbəbi də bu təhlükəni hiss etməsidir".

Politoloq işğalçı ölkədə vəziyyətin getdikcə pik nöqtəsinə çatmasını Paşinyana qarşı müqavimətin artması ilə əlaqələndirərək vurğulayır ki, bütün bu yaşananlar baş nazirin kreslosunu itirməsi ilə nəticələnə bilər: "Paşinyana qarşı yaradılan cəbhə onun parlament seçkilərində qələbə çalmasını da şübhə altına alır. Vəziyyət kifayət qədər gərgindir və gərginləşmə yüksələn xətlə davam edir. Bu, o deməkdir ki, yaxın vaxtlarda Paşinyana qarşı daha güclü cəbhə formalaşdırıla bilər. Bu cəbhə Paşinyanın, hətta parlament seçkilərindəki qələbəsini də müəyyən dərəcədə şübhə altına ala bilər. Əlbəttə, hər şey proseslərin gedişindən asılıdır. Paşinyan küçə və sıradan adamlarla yaxşı işləyir. Amma Ermənistanda siyasilərlə oliqarxların birləşməsi, hərbçilərin bir qisminin də onlara dəstək verməsi onu göstərir ki, Ermənistan özünün çətin dövrünə qədəm qoyur və bu məsələ, hətta ciddi qarşıdurmalara da aparıb çıxara bilər. Eyni zamanda, Paşinyan onu da anlayır ki, konstitusiya dəyişikliklərini həyata keçirə bilməyəcək. İndiki tərkiblə parlament bu dəyişikliklərin lehinə səs verməyəcək. Belə olduqda, parlamentin yenidən formalaşdırılmasının yeganə yolu onun istefasıdır. Parlament əksəriyyətinin - Respublika Partiyasının başqa bir namizəd irəli sürərək onu baş nazir edə bilməməsi üçün Paşinyan 24 saatlıq fasiləsiz mitinqlər təşkil edərək, parlamentin binasını bloklamaq və minimum 2 həftə ərzində yeni iclasın çağırılmasına mane olacaq".

### AŞPA-dan Paşinyana seçki xəbərdarlığı

Bu arada Avropa Şurası Parlament Assambleyası Ermənistandakı siyasi qüvvələri demokratiya və qanunun aliliyi prinsiplərinə tam şəkildə hörmət etməyə, növbədənkənar parlament seçkilərinə hazırlaşarkən tələskənliyə yol verməməyə çağırıb. Bu barədə AŞPA-nın monitorinq qrupunun Ermənistan üzrə həmməruzəçisi Yuliya Levoçkina bildirib. "Biz Ermənistanda növbədənkənar seçkilərin keçirilməsinə dair çağırışları başa düşürük, amma bu seçkilərin keçirilməsi zamanı Ermənistan hökumətini və bütün siyasi qüvvələri Avropa norma və standartlarına tam şəkildə riayət təmin etməyə çağırırıq. Seçkilərə hazırlıq üçün Ermənistandakı bütün siyasi qüvvələrin kifayət qədər vaxta malik olması vacibdir".

Levoçkina vurğulayıb ki, Ermənistanda Seçki Məcəlləsinə istənilən dəyişiklik Venesiya Komissiyasının təlimatlarına tamamilə uyğun gəlməlidir: "Ermənistanda Seçki Məcəlləsinə istənilən dəyişiklik Venesiya Komissiyasının təlimatlarına tamamilə uyğun gəlməlidir. Bu səbəbdən də, AŞPA Ermənistanda növbədənkənar seçkilər və mümkün Konstitusiya İslahatlarının həyata keçirilməsi üçün tələsməməlidir."

### Paşinyan istəyinə nail ola biləcəkmi?

Ermənistan parlamentinin xarici əlaqələr üzrə komitəsinin rəhbəri, Respublika Partiyasının sədr müavini Armen Aşotyan isə, hesab edir ki, Paşinyanın yaxın günlərdə istefa verəcəyi və dekabr ayında parlamet seçkilərinin keçiriləcəyinə dair qərarı əvvəlcədən planlaşdırılıb və spontan bir qərar deyil.

Aşotyanın sözlərinə görə, Paşinyan bu barədə Vaqram Baqdasaryanla görüşdən sonra da bildirib. Respublikaçı deputat əlavə edib ki, əgər problem baş nazirin və onun komandasının parlamentdə yerlərin üçdəikisini əldə etməkdirsə, bu, başqa məsələdir: "O, qərarını ölkədəki iqtisadi-siyasi böhranın aradan qaldırılması ilə izah edir. Mənim üçün isə bir səbəb var - Nikol Paşinyan mümkün qədər tez parlamentdə yerlərin əksəriyyətinə sahib olmaq istəyir və bir narahatlıq, versiya da var, Allah eləməsin ki, bütün bunlar hansısa geosiyasi oyunlar çərçivəsində baş versin".

Deputat onu da əlavə edərək söyləyib ki, Paşinyanın seçkilərlə bağlı tələskənliyi daha çox parlamentdə mandatların əksəriyyətinə sahib olmaqdır: "Çünki Paşinyan anlayır ki, parlamentdə çoxluq sabiq hakim partiyanın, respublikaçıların əlindədir, bundan da olduqca narahatdır. Digər tərəfdən, o, hakimiyyətdə olduğu müddətdə hər hansı ciddi nəticələrə nail ola bilməyib. Buna görə də, Paşinyan getdikcə xalq arasında nüfuzunu itirə biləcəyindən qorxur, seçkilərin də tezləşdirilməsinin əsas səbəblərindən biri, məhz budur. Bunu isə zaman göstərəcək".

**A.SƏMƏDOVA**

# "Azərbaycanın mövqeyi həmişə fərqli və haqlı olub"



"MDB dövlət başçıları səviyyəsində Düşənbədə keçirilən sammitdə münaqişə tərəfləri arasında baş tutan görüş müəyyən dərəcədə müsbət əhval-ruhiyyənin yaranmasına stimul verib". Bunu "Səs"ə açıqlamasında politoloq Elşən Manafov deyib. Onun sözlərinə görə, həmin görüşə qədər konfliktə münasibətdə daha çox aqressiv davranışları ilə yadda qalan Paşinyan Düşənbədə bu ritorikasından geri çəkilərək, münaqişənin danışıqlar yolu ilə həllinin vacib olduğunu bildirib: "Burada o, Dağlıq Qarabağdakı separatçı rejimin də danışıqlar prosesinə qatılması kimi əvvəlki sərsəm fikrindən əl çəkib. Yeni Düşənbədə yaranan müsbət ab-hava uzun müddətdir ki, tərəflər arasında dayanan danışıqların yenidən başlanmasına bir stimul yaradıb". Politoloq Elşən Manafovun fikrincə, aktiv danışıqlar dövrünün başlanıb-başlanmayacağı Ermənistanın məsələ ətrafında bundan sonra sərgiləyəcəyi mövqedən asılı olacaq: "Təbii ki, iki ölkə rəhbərinin Düşənbədə baş tutan görüşü son vaxtlar Dağlıq Qarabağ cəbhəsində mövcud olan gərginliyin aradan qaldırılması baxımından əhəmiyyətli bir hadisədir. Məhz bu görüşdən sonra Paşinyan sevinc və şadyanalıqla bildirdi ki, tərəflər bundan sonra da problemin danışıqlar yolu ilə həlli variantına sadiq qalacaqlarını bəyan edib. Xüsusən də, erməni tərəfi bəyan edib ki, ciddi-cəhdlə atəşkəs şərtlərinə əməl edəcəklər. Amma bu kimi bəyanatlar Ermənistan rəsmiləri tərəfindən dəfələrlə verilib. İstər Paşinyan, istərsə də ona qədərki erməni siyasətçiləri tərəfindən belə bəyanatların dəfələrlə şahidi olmuşuq. Danışıqların gedişində mahiyyət etibarı ilə yeni bir mərhələnin başlanıb-başlanmayacağı və yaxud danışıqlar prosesinin impulsiv xarakter alacağı, burada dinamizmin olub-olmaması yetərincə erməni tərəfinin sərgilədiyi mövqedən asılı olacaq. Azərbaycanın mövqeyi həmişə fərqli və haqlı olub. Konkret olaraq, işğal altındakı torpaqlarımızın azad olunmasını tələb etmişik və bu zaman həmin tələbi beynəlxalq normalara istinadən bəyan etmişik. Cənab Prezidentimizin qeyd etdiyi kimi, Azərbaycan dövləti və xalqı heç bir zaman və heç bir şərtlə torpaqlarımızda ikinci bir erməni dövlətinin yaranmasına razılıq verməyəcək. Danışıqların gedişində uğurun olub-olmayacağı təkcə formatın dəyişməsindən asılı deyil. Sadəcə olaraq, Ermənistan indiyə qədər sərgilədiyi qeyri-konstruktiv mövqedən əl çəkməlidir. Amma bu günə qədər gördüyümüz odur ki, sözügedən məsələdə İrəvanın mövqeyində elə də ciddi dəyişiklik yoxdur. Bu halda, Azərbaycan hansı kompromislərə gedə bilər?! Azərbaycan Dağlıq Qarabağda yaşayan erməni icmasının təhlükəsizliyinə, ölkə vətəndaşları kimi onların hüquqlarının ən yüksək səviyyədə qorunmasına təminat verir. Digər ölkə vətəndaşları kimi, təbii ki, ermənilərin də hüquqları qorunacaq. Ancaq qarşı tərəfin verdiyi bəyanatlara nə dərəcədə sadiq olduğu sual doğurur. Azərbaycan tərəfinin atdığı addımlar fonunda, qarşı tərəf ciddi güzəşt və kompromislərə gedəcəkmi? İkinci bir tərəfdən, bu, təkcə Ermənistanın iradəsindən asılı olan məsələ deyil. Rusiya tərəfi bu məsələdə, hələ ki, fərqli mövqe sərgiləmir. Moskva da digər həmsədr ölkələr kimi bəyan edir ki, münaqişə tərəfləri hansı razılığa gələsələr, onlar da həmin şərtləri qəbul etməyə hazırdırlar. Bu da, onu göstərir ki, Rusiyanın Ermənistana təzyiq edib, 5-7 rayonun qaytarılacağı ilə bağlı Şimal tərəfdən ara-sıra səslənən bəyanatlar, hələlik, elə bəyanat olaraq da qalır. Danışıqlarda növbəti mərhələnin başlana bilməsi daha çox ermənilərin sərgilədiyi mövqedən asılı olacaq. ATƏT-in Minsk Qrupu da məsələyə indiyə qədər olduğundan fərqli yanaşmalı, ermənilərin hansı həddə qədər geri çəkiləcəkləri ilə bağlı məsələyə aydınlıq gətirməlidirlər. Azərbaycanın mövqeyi bəllidir. Hər zaman problemin danışıqlar yolu ilə həllinə tərəfdar olmuşuq. Amma erməni tərəfi unutmamalıdır ki, danışıqlar da real müstəviyə keçməli və problemin ədalətli həllinə xidmət etməlidir. Bu, baş verməsə, Azərbaycan digər vasitələrdən istifadə etməli olacaq ki, beynəlxalq hüquq da buna imkan verir".

**GÜLYANƏ**

# AXCP və Müsavat yenə də "ana müxalifətçilik" iddiasındadır

Bir bəhanə tapa bilməyəndə, müxalifətin dağıdıcı liderləri başlayırlar "ana müxalifətçilik" iddiasına. Azərbaycanda siyasi proseslərin durğun olmadığı zamanlarda "ana müxalifətsilik" anlayışı deyilən ifadə var idi və bu ad uğrunda mübarizə gedirdi.

Hətta son zamanlara qədər bəzi müxalifət partiyaları Müsavat və AXCP-nin "ana müxalifət" iddiasını qəbul edirdi. Lakin bu gün ölkənin aparıcı müxalifət partiyaları arasında çəkişmələrin getdiyi bir vaxtda onlar nüfuzlarını tamamilə itiriblər. Görünür, elə bu baxımdan da, "əsl müxalifət" "titulunu" yenidən ortaya atmaqla, boş və mənasız "iddialar-dadırlar". Ancaq bu iddiada olanlara öz həmkarlarının dili ilə "bu boş xülyalarla 25 ildir ki, yaşayırsınız, nəticə nə oldu? Biabırçılıq".

<u>Rəsul Quliyev:</u>
**"10 nəfərdən biri, özünü "ana müxalifət" adlandırırsa, görünür, onlar axmaq olaraq qalacaqlar"**

ACP-nin keçmiş lideri Rəsul Quliyev müxalifət düşərgəsindəki vəziyyəti şərh edərkən, bildirib ki, bu, çox gülməli və diletantların istinad etdiyi nəzəriyyədir: "Müxalifət xalq arasında sosial bazaya malik deyilsə, hansı "ana müxalifət" və yaxud da "əsl müxalifət"dən danışmaq olar? Bu "badbaxtlar" anlamırlar ki, bu gün hər hansı partiya sədri öz ətrafında 5-10 nəfərin o biri partiya sədrindən artıq olmasından qürrələnməməli, "ana müxalifətçilik" yarışı aparılmamalıdır. Çünki hər şey bir kənara, heç olmasa, uğursuzluqlardan nəticə çıxarmalıdırlar. Ancaq atalar demişkən, "utanmasan, oynamağa nə var ki?"

<u>Sərdar Cəlaloğlu:</u>
**"Azərbaycanda "ana müxalifət" küçə müxalifəti səviyyəsindədir"**

ADP sədri Sərdar Cəlaloğlu isə, sözügedən məsələyə aydınlıq gətirərək, bəzi səbəblərə görə "ana müxalifət" termininin artıq gündəmdən çıxdığını söyləyib: "Ana müxalifət" adına iddialı olanlar güclü olmalıdırlar, xalq tərəfindən dəstəklənməlidirlər. Bu gün müxalifət düşərgəsində sürünənlər var. Müxalifət düşərgəsində xalqın problemlərini təkcə öz çiyninə götürəcək nə elə bir partiya var, nə də "ana müxalifət" deyilən anlayış. Azərbaycan reallığında "ana müxalifət" bu günə qədər küçə müxalifəti səviyyəsində qalır. Belə olan müxalifət düşərgəsində olan partiyalar hansı əsasla "əsl müxalifət" iddiasına düşürlər? Yaxşı olar ki, oturduqları yerdə oturub şükür etsinlər".

**Rəfiqə HÜSEYNOVA**

# <u>Skripal işi:</u> BBC hərbi şərhçisinin kitabı yeni faktları üzə çıxardı

***Bu ilin martında Britaniyanın Solsberi şəhərində "Noviçok" adlı siniri paralizə edən qaz vasitəsi ilə həyatına sui-qəsd edilmiş "QRU"-nun (Baş Kəşfiyyat İdarəsi) polkovnik rütbəli sabiq əməkdaşı və ikili agenti Sergey Skripal Britaniyanın "Mİ6" xarici kəşfiyyatına Rusiya kəşfiyyatının yuxarı eşalonlarında fəaliyyət göstərən şəxslərin korrupsiya sxemini təqdim edib.***

**Hərbi Dəniz Donanması zabitinin müəmmalı ölümü və kəsilmiş barmaq ismarıcı**

Bununla bağlı "The New York Times2 qəzeti oktyabrın 2-də nəşriyyatdan çıxan və casusluq barədə bəhs edilən kitaba istinadən yazır. Skripal həmin sxem barədə ötən il BBC media şirkətinin hərbi şərhçisi Mark Urbana verdiyi müsahibəsində danışıb ki, ikinci bundan sonra "soyuq müharibə" dövründən sonra casusluq barədə sözügedən kitabı yazıb.

Skripalın sözlərinə görə, korrupsiya barədə informasiya ən yüksək səviyyədə və ciddi şəkildə sirr olaraq saxlanılmışdı. Skripal məlum edib ki, vaxtilə onunla birgə Rusiyanın hərbi kəşfiyyatında çalışmış Hərbi Dəniz Donanmasının zabiti Qərbin xüsusi xidmət orqanlarına informasiya ötürərkən tutulub və 2004-cü ildə rus kəşfiyyatı tərəfindən sorğu-sual edildiyi hospitalda ölü halda tapılıb. "Çox güman ki, o, boğularaq öldürülüb. Rəsmi versiya intihar olsa da, onun barmaqlarının bir neçəsi kəsilmişdi ki, bu da nöqsansız olaraq, qorxulu ismarıc hesab edilə bilər" deyə qeyd olunub.



**Skripal SSRİ-nin dağılmasından böyük təəssüf hissi keçirib və prezident Boris Yeltsinə qarşı aşırı nifrət hissi bəsləyib**

"The New York Times"ə görə, Almaniyanın "Deutsche Welle" nəşri isə yazır ki, britaniyalıların kəşfiyyatı Skripalın bu cür tələdən qaça bildiyini qət edib. Belə ki, Rusiyadakı sorğu-sual zamanı, o, korrupsiya şəbəkəsi barədə heç nə deməyib, hansı ki, bu şəbəkə birbaşa Rusiya Federal Təhlükəsizlik Xidmətinin keçmiş direktoru - Rusiya Təhlükəsizlik Şurasının hazırkı katibi Nikolay Patruşevlə bağlı olub.

"Skripalla müsahibə Mark Urbanın "Skripal işi. Rusiya casusunun həyatı və demək olar ki, ölümü" ("The Skripal Files: The Life and Near Death of a Russian Spy") kitabında yazılıb. Müsahibədə "Nəyə görə Skripalı zəhərləməyə cəhd ediblər" sualına cavablar axtarılmır. Lakin bununla yanaşı, orada keçmiş kəşfiyyatçının-Britaniya kəşfiyyatının informatoru - casusunun bu günkü həyatının mənzərəsi tam şəkildə əks olunur", "The New York Times" yazıb.

**Madridə və oradan da Britaniyaya aparan kəşfiyyat yolu**

"1992-ci ildə, o, Rusiyanın hərbi kəşfiyyat ("QRU") generalı ilə görüş xahiş edib və yeni hökumətə işləmək istəmədiyi ilə bağlı istefa ərizəsini təqdim etməyə cəhd göstərib. Lakin bu idarədə peşəkar zabit qıtlığı olduğu və onlara böyük ehtiyac duyulduğu üçün Skripalın ərizəsi qəbul edilməmiş qalıb. Bunun yerinə isə ona Madriddə işləmək üçün "isti yer" təklif olunub" deyə məqalədə bildirilir.

Yazıda qeyd olunur: "Skripal İspaniyada gözləmə mövqeyində olan agent özəyinə dəstək göstərməli idi. Belə ki, bu özəkdən müharibənin başlayacağı halda istifadə ediləcəkdi. 1993-cü ildə - ispan dilinin öyrənilməsi üzrə sürətli kursu başa çatdırdıqdan sonra Skripal ailəsi ilə birgə Madridə gedərək, orada fəaliyyət göstərən səfirlikdə elm və texnika üzrə katib vəzifəsində çalışır. Məhz orada "QRU"ya yol axtarışında iddialı olan "Mİ6"-nın hədəfinə düşür. Skripalın Madriddəki mövcudluğunun sonlarına yaxın dövrdə -1996-cı ildə Britaniya kəşfiyyatının gənc agenti, kod adı "Riçard Bengell" olan şəxs onunla təmas yarada bilir. Skripalın sözlərinə görə, hələ Madriddə olarkən, o, xarici ölkədə yaşamaq, işgüzar münasibətlər qurmaq, pul qazanmaq və ən nəhayət, "QRU"dan getmək fikrinə düşmüşdü. Bu baxımdan, o, "Mİ6"-nın informatoru olmağa razılıq vermişdi".

"Tezliklə Skripal britaniyalılara "QRU"nun Madriddəki mənzil-qərargahında sistemli korrupsiyasıyla bağlı informasiyasını ötürüb, hansı ki, həmin vaxtlar sovetlər zamanının qayda-qanunu zəifləmişdi" deyə yazan nəşr daha sonra qeyd edib ki, o, (Skripal) "Mİ6"-ya bəzi zabitlərin şəxsi məlumatlarını çatdırıb: "Bu zabitlər süni qaydada xərcləri şişirdir, saxta məruzələr yazır və əldə etdikləri vəsaitləri özləri ilə birgə, onlara hamilik edən yüksək rütbəli zabitlərlə bölürdülər. Britaniya hökuməti Skripaldan əldə etdiyi informasiya vasitəsi ilə İspaniya kəşfiyyatına yardım etməyi planlaşdırıb və britaniyalılar ispanlara Hərbi Dəniz Donanmasının zabitini verbovka etmək köməkliyi göstərib. Bu, həmin zabitdir ki, sonradan Rusiyanın hərbi hospitalında ölü tapılmışdı".

"Kitabda təsdiq olunur ki, Skripalın "Mİ6"-dakı kuratorları ona sığınacaq təklif etsələr də, o, Rusiyaya geri-dönməyi tərcih edib və iki aydan sonra həbs olunub" deyə "The New York Times" qəzeti yazır. Skripal Urbana müsahibəsində Rusiya rəhbərliyindən ehtiyat etdiyini və çəkindiyini də etiraf edib: "Urbanla 10 saata yaxın davam edən bir neçə müsahibədən sonra, Skripal deyib ki, kitab çıxandan sonra öz həyatının təhlükəsizliyindən ehtiyat edir. "Bu, Putinə görədir" - deyə o, Urbana bildirib. "Bilirsiniz, biz Putindən qorxuruq" deyə Skripal etiraf edib".

Qeyd edək ki, Skripal işi Böyük Britaniya ilə Rusiyanın diplomatik münasibətlərinə ciddi təsir göstərib və qarşı tərəflər bir-birlərini ən sərt şəkildə ittiham etməkdə davam edirlər.

**Rövşən NURƏDDİNOĞLU**

# İnsan haqları sistemində hüquqi və əxlaqi sanksiyaların qarşılıqlı münasibətləri

***İnsan haqları sistemində özündə təşkilati və etik yük daşımayan texniki qaydaları ehtiva edən hüquq normalarına rast gəlmək mümkündür. Yəni heç də bütün sosial normalar özündə əxlaqi elementləri nəzərdə tutmur. Məsələn, məhkəmə iclasının qanunvericiliklə müəyyən edilmiş protokol forması, yaxud hər hansı sənədin notarial qaydada təsdiq edilməsi və s. əxlaqi göstərişlərin tələblərinə söykənmirlər. Bu da təbiidir.***

Hüquqşünas Leyla İsgəndərova yazır: "Lakin nəzərə almaq zəruridir ki, hər hansı hüquqi qaydanın və göstərişin realizə olunması ictimai münasibətlərin qaydaya salınması, hüquq subyektlərinin qarşılıqlı münasibətlərində dəqiqliyin və müəyyənliyin gözlənilməsi əxlaqi dəyərlər baxımından laqeydliklə gerçəkləşdirilə bilməz. Bu mənada, hüquq norması ilə əxlaq norması qarşılıqlı əlaqədə çıxış edir.

Hüququn spesifikliyi cəmiyyətdə formal bərabərliyi, onun dövlətlə əlaqəsini və bağlılığını ifadə etməkdir. Hüquq normaları, bilavasitə ictimai münasibətlərin bətnində yaranır. Lakin bu normalar özünün institutlaşdırılmış xarakterini, "sivil" ifadəsini dövlətin qanunvericiliyində əldə edirlər. Hüquq normalarının institutlaşdırılmış xarakteri onu digər sosial normalardan, xüsusən də, əxlaq normalarından fərqləndirən mühüm əlamətdir.

Hüququn (hüquq normasının) öz genezisində və öz varlığında dövlətlə qarşılıqlı əlaqəsi onun ən mühüm əlamətidir. Bu əlamət hüququn özünəməxsus spesifikliyini müəyyən edir və onu, məsələn, əxlaqdan fərqləndirir. Hüquq və dövlət hökmran sinfin mənafelərinin müdafiəsinin obyektiv tələbatına cavabdır. Bu tələbat, hüquq istisna olmaqla, heç bir digər sosial norma tərəfindən ödənilə bilməz. Bu cəhətdən insanın, vətəndaşın hüquq və azadlıqlarının müdafiəsi də istisnalıq təşkil etmir. Hüquq və azadlıqlar, məhz dövlətin müəyyən etdiyi hüququn (hüquq normalarının) köməyinə möhtacdırlar. Bu da, onunla izah edilir ki, təminatlı sanksiyaya yalnız hüquq malikdir. Bununla belə, əxlaq normalarının da sanksiyalarını nəzərə almamaq olmaz.

Hüquqi və əxlaqi sanksiyaları fərqləndirərkən, bu sosial tənzimləyicilərin qüvvədə olduqları və fəaliyyət göstərdikləri konkret tarixi şəraiti nəzərə almaq lazımdır. Əxlaqi sanksiyalarla müqayisədə hüquqi sanksiyaların sərtliyi bütün dövrlərdə və bütün cəmiyyətlərdə mövcud olmuş universal fərq deyil. Müxtəlif cəmiyyətlərin mövcudluğunun ayrı-ayrı tarixi dövrlərində həm əxlaqi, həm də hüquqi sanksiyaların sərtliyi dərəcəsi də müxtəlif olmuşdur. Bundan başqa, bir sıra məqamlarda əxlaqi sanksiyalar zərurət nəticəsində hüquqi, hüquqi sanksiyalar isə əxlaqi sanksiyalara çevrilmişdir.

Hüquqi sanksiyaların spesifikliyi onların sərtliyi və formal müəyyənliyindən deyil, təminetmə üsullarından ibarətdir. Bu da hüquq normalarına əməl edilməsində məcburiyyətdən istifadə etməyə qadir olan, üsul və institutların xüsusi dəstindən istifadə edən dövlətlə qırılmaz surətdə bağlıdır.

Deməli, hüququn spesifikliyi onun dövlətlə sıx bağlılığından daha parlaq surətdə təzahür edir. Belə sıx bağlılıq həm də hüququn mövcudluğunun institusiyalaşdırılmış formasında özünü büruzə verir ki, bu da formal bərabərlik prinsipində öz ifadəsini tapır.

Hüquq normalarının real qüvvəsi onların rəsmi sənədlərdə zahiri ifadəsi, təsbiti ilə, bilavasitə bağlıdır. Belə rəsmi sənədlərdən ən mühümü və daha çox geniş yayılan normativ-hüquqi aktdır. Normativ-hüquqi aktı aşağıdakı əlamətləri xarakterizə edir:

1) normativ-hüquqi aktlar səlahiyyətli dövlət orqanları tərəfindən verilir, yaxud konstitusiyaya uyğun surətdə, bilavasitə əhali tərəfindən referendum yolu ilə qəbul olunurlar;

2) normativ-hüquqi aktlar özündə hüquq normalarını ehtiva edir, bu normaları müəyyən və ləğv edir və ya onları dəyişdirir;

3) normativ-hüquqi aktlar hüquqi qüvvəyə malikdirlər, onlar dövlət tərəfindən mühafizə olunur və təmin edilirlər;

4) normativ-hüquqi akt forma etibarilə yazılı sənəddir, o, müəyyən struktura və zəruri atributlara malikdir;

5) normativ-hüquqi akt legitim xarakter daşıyır.

Artıq qeyd edildiyi kimi, hüquq ictimai münasibətlərin reqlamentləşdirilməsi, inkişaf etdirilməsi və mühafizəsinin mühüm vasitəsidir. Zira, bu ictimai münasibətlərin özü insanların cəmiyyətdəki həyati fəaliyyətinin və onların davranışının məhsuludur. Deməli, hüquq ictimai münasibətləri yalnız konkret insanların, ayrı-ayrı şəxsiyyətlərin davranışına və ictimai münasibətlərdən irəli gələn hərəkətlərinə təsir göstərməklə tənzimləyə bilər. Belə söyləmək olar ki, hüquq - bu, insanların hərəkət və davranışlarını idarə edən ən əhəmiyyətli alətlərdən biridir. Hərəkət və davranışlar isə hüquqi tənzimetmənin, bilavasitə obyektləridir. K.Marks hüquqi tənzimetmədə davranışın rolunu xarakterizə edərək, yazırdı ki, öz hərəkətləri ilə yanaşı, insan tamamilə qanun üçün mövcud deyil, onun subyekti deyil. Buna görə də, insanın hərəkətlərinin yeganə olması nəticəsində, onun qüvvədə olan hüququn hakimiyyəti altına düşməsinə səbəb olur.

İnsanların davranışı son dərəcə müxtəlifdir. Belə ki, insan davranışı müxtəlif ifadə olunma formalarına malikdir. İnsan davranışının aşağıdakı formaların fərqləndirmək olar:

a) insan davranışında intensivlik;
b) insan davranışının motivləri;
c) insan davranışının məqsədləri;
ç) insan davranışının nəticələri.

Göstərmək lazımdır ki, insan davranışının bütün variantları dövlət-təşkilati cəmiyyət sistemində müəyyən maraqları, yönümləri və ideoloji mövqeləri aşkar edir. Məhz buna görə də, insanın hər cür davranışı əxlaqi və hüquqi qiymətləndirmənin obyekti qismində çıxış edir".

Fəlsəfə üzrə elmlər doktoru Əbülhəsən Abbasovun fikrincə, tarixən insan hüquqlarına verilən anlayışlar müxtəlif olmuşdur. İnsan haqları ideyası yarandıqdan bəri ona müxtəlif adlar verilmişdir. Bu ideya ilk əvvəllər "təbii hüquqlar", "əsas hüquqlar", "şəxsi hüquqlar", "şəxsi azadlıqlar" anlayışları ilə ifadə olunurdu. Fərqli ifadələrin istifadə olunmasına baxmayaraq, bütün hallarda, söhbət, məhz insana məxsus hüquqlardan gedirdi. Bununla yanaşı, bu ifadələrin fərqləndirici elementləri də mövcud idi.

İnsan haqları ideyası formalaşdığı zamandan həm fəlsəfi, həm də hüquqi ədəbiyyatlarda rast gələnən "təbii hüquqlar" anlayışı heç də birmənalı anlaşılmırdı. Hələ XIX əsrin əvvəllərində ingilis liberalizminin banilərindən biri olan Lyeremiya Bentam bu ifadəyə qarşı çıxaraq, "təbii hüquqların" hər hansı sosial kontekstdən kənarda cəfəngiyyat olduğunu iddia edirdi. Sonralar Karl Marks bu fikri müəyyən qədər dəstəkləyərək, insanların ictimai münasibətlərdən təcrid olunmuş halda - sosial məna qismində baxılmasını yanlış mövqe hesab etmişdir. Amerikanın tanınmış alimi Cak Donell insan haqlarının insanın təbiətinin, əxlaqının, həyat tərzinin, davranışının güclü təsirinə məruz qaldığını iddia edir. Ona görə, insan hüquqları ideyası insanın qabiliyyət və bacarıqlarını nəzərdə tutan sosial müstəvidir.

Avropada kapitalizmin qərarlaşması fəhlə sinfi və sahibkarlar arasında münasibətlərin getdikcə gərginləşməsinə (ağır iş şəraiti, az əmək haqqı və s. ilə əlaqədar olaraq) səbəb olmuşdur. Ümumi maraqlar ətrafında birləşən fəhlələrin ilk ciddi tələbləri - birləşmək (sərbəst toplaşmaq) haqqı və əmək hüququ 1831-ci ildə Lion üsyanı ilə nəticələndi. Demək olar ki, əksər iri sənaye şəhərlərində fəhlələrin nümayişləri intensivləşməkdə idi. Bu tələblər insanların əmək hüququ, seçib-seçilmək hüququ, siyasi birliklər yaratmaq hüququ, iş şəraitinin yaxşılaşdırılması, sosial təminatın təşkili, azad həmkarlar ittifaqında birləşmək və tətil etmək kimi "yeni" hüquq və azadlıqların üzə çıxmasına vəsilə olmuşdur. Fəhlə sinfinin tələblərinin səciyyəvi cəhətlərindən biri də ondan ibarət idi ki, onlar, sadəcə, hansı hüquqlarını tələb etdiklərini deyil, həmin hüquqların təmin olunması yollarını da bilirdilər. Məsələn, siyasi bərabərsizliyin seçib-seçilmək hüququnun hər bir şəxs üçün tanınması ilə, iqtisadi bərabərsizliyin siyasi birliklər və tətil yolu ilə, ictimai bərabərsizliklərin isə dövlətin sosial siyasəti vasitəsilə aradan qaldırıla biləcəyinə əmin idilər.

Birinci Dünya müharibəsindən sonra hüquq və azadlıqların ictimailəşməsi ilə sosial dövlət anlayışı meydana çıxaraq, yayılmağa başlamışdır. Əsasən, insanların iqtisadi və sosial maraqlarını güdən sağlamlıq, əmək, ailə və uşaqların müdafiəsi, istirahət, təhsil almaq, minimum əmək haqqı, sosial təminat, mənzillə təmin olunmaq, sığorta, tətil etmək kimi hüquqlar insan hüquqları kimi qəbul edilərək, bir çox dövlətlərin konstitusiyalarında təsbit edilmişdir. Külli miqdarda insan tələfatı ilə nəticələnən İkinci Dünya müharibəsindən sonra dövlətlər insan hüquqlarına daha ciddi yanaşmış, bu hüquqların etibarlı təmin edilməsinin zəruriliyini anlamışlar. XX əsrin ortalarından başlayaraq dövlətlər artıq insanın "təbii hüquqları"nın təmin olunmasından daha çox, iqtisadi, sosial və siyasi hüquqlarının təminatına diqqət yetirirdilər. Beləliklə, insan hüquqları insanların iqtisadi, sosial və siyasi maraqlarını güdən hüquqlarla tamamlanaraq, daha dolğun bir məzmun almış oldu.

Leyla İsgəndərova sonra yazır: "Hüquqi mövqedən insan davranışı müxtəlif səpkidə qiymətləndirilə bilər. İnsanların ayrı-ayrı münasibətləri hüquqi tənzimetmə sferası xaricində yerləşdiyinə görə, ümumiyyətlə, hüquqla qiymətləndirilmir (məsələn, dostluq, sevgi münasibətləri və s.). Belə münasibətlər ancaq əxlaqi cəhətdən qiymətləndirilə bilər. Elə münasibətlər də vardır ki, onlar hüquqla tənzimlənmirlər və buna görə də, onların hüquqi müəyyənliyi tələb olunmur (məsələn, idmanla, musiqi, idman oyunları ilə məşğul olmaq, yaxud müəyyən özfəaliyyət tədbirlərində iştirak etmək və s). Hüquq elmi və hüquqi praktika üçün daha böyük maraq doğuran insanların hüquqi təsir sferasındakı davranışıdır. Belə ki, bu, hüquqla tənzim edilən davranışdır. Məhz belə davranış hüquq adlandırılır.

Hüquqi davranışa aşağıdakı bir sıra əlamətlər xasdır.

Hüquqi davranışın birinci əlaməti - sosial əhəmiyyətlilik. İnsanların hərəkətləri ictimai münasibətlər sisteminə hörülmüşdür və buna görə də, bu hərəkətlər ictimai münasibətlərə təsir (müsbət, yaxud mənfi) göstərirlər. Özünün sosial əhəmiyyətlilik dərəcəsinə görə insanların hər bir hərəkəti ətrafdakıların cavab reaksiyasını doğurur. Bu hərəkətlər ya bəyənilir, ya da tənqid olunur. İnsan davranışının sosial xarakteristikası (qiyməti) da, məhz bunda təzahür edir. Törədilmiş hərəkət ya ictimai faydalı, ya da ictimai təhlükəli (zərərli) ola bilər.

Hüquqi davranışın ikinci əlaməti - psixologizm, subyektivlik. Bu əlamət onunla şərtləşir ki, insanlar şüura və iradəyə malikdirlər, bundan əlavə onlar öz davranışlarına nəzarət edirlər. Hüquqi sferada bu və ya digər hərəkəti edən subyekt onu mövcud norma və dəyərlərlə əlaqələndirir, özünə, digər insanlara və bütövlükdə, cəmiyyətə hansı faydanı verə biləcəyini təhlil edir. Bundan asılı olaraq, müvafiq qərar qəbul olunur, davranışın istiqamətləri və intensivliyi müəyyənləşdirilir. İnsanın öz hərəkətlərinə münasibəti ilə bağlı olan bu cəhət davranışın subyektiv tərəfini təşkil edir.

Göstərilənlərlə yanaşı, insanın hüquqi sferadakı davranışı onun hüquqi davranış kimi xarakterizə edən spesifik və hüquqi əlamətlərə malikdir ki, bu da davranışın hüquqla, hüquqi tənzimetmə ilə olan əlaqəsi vasitəsilə müəyyən edilir.

Belə davranışın birinci hüquqi əlaməti onun hüquqi reqlamentləşdirilməsidir. İnsan davranışının həm obyektiv, həm də subyektiv məqamları hüquqi göstərişlərdə əks olunur. Belə reqlamentləşdirmə insanın hüquqi sferadakı davranışının dəqiqliyi və müəyyənliyini təmin edir, eləcə də, vətəndaşların hərəkətlərinin digər subyektlərin kənar müdaxiləsindən müdafiəsidir. Hüquqi davranışın bu formal-hüquqi tərəfinin çox böyük əhəmiyyəti vardır.

Hüquqi davranışın ikinci hüquqi əlaməti bu davranışın hüquq-mühafizə və hüquqi tətbiqetmə orqanlarının şəxsində dövlətin nəzarəti altında olmasıdır. Bu əlamət hüququn, onun məcburiliyinin dövlət tərəfindən təminantlılıq xassəsidir. Dövlət sosial həyat subyektlərinin hərəkətlərinə nəzarət edərkən, onları sosial əhəmiyyətliliyindən asılı olaraq əlaqələndirir."

**VAHİD ÖMƏROV,**
*fəlsəfə üzrə fəlsəfə doktoru*




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 5 oktyabr

## Alimlərdən gizli sosial şəbəkələrin aşkarlanması üçün yeni metod




Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) akademik-katibi, İnformasiya Texnologiyaları İnstitutunun direktoru, akademik Rasim Əliquliyev, həmin institutun şöbə müdiri, AMEA-nın müxbir üzvü Ramiz Alıquliyev və elmi işçi Günay Niftəliyevanın həmmüəllifi olduqları "İstifadəçi şərhlərinin sentiment analizi əsasında e-dövlət mühitindən sosial şəbəkələrin çıxarılması" ("Extracting social networks from e-government by sentiment analysis of users") sərlövhəli məqalə "Scopus" elmi bazasında indeksləşən yüksək reytinqli "Electronic Government" beynəlxalq jurnalında dərc edilib.

İnstitutdan AZƏRTAC-a bildirilib ki, məqalədə dövlət əleyhinə təbliğatın qarşısının alınması üçün metod təklif olunub. Metodda sentiment analiz, "opinion mining", "text mining" və sosial şəbəkə analizi üsullarından istifadə edilib. Təklif edilmiş metodda vətəndaşların e-dövlət mühitində yerləşdirilən sənədlərə yazdığı şərhlər əsasında gizli sosial şəbəkələr və onlar arasında münasibətlərin dərəcəsinin müəyyənləşdirilməsi nəzərdə tutulub. Bu məqsədlə əvvəlcə şərhlər analiz olunub, qruplaşdırılıb və onların içərisində heç olmasa bir dəfə mənfi şərh yazan istifadəçilər arasından gizli sosial şəbəkələr aşkarlanıb. Aşkarlandıqdan sonra bu sosial şəbəkələrdən əsas faktorlar müəyyən olunub. Bununla yanaşı, məqalədə müxtəlif mühitlərdə sosial şəbəkələrin çıxarılması metodları, eləcə də e-dövlətin idarə olunmasında sosial şəbəkələrin rolu haqqında məlumat verilib.

Bu məqalə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun qrant layihəsi çərçivəsində hazırlanıb. Qeyd edək ki, "Scopus" (Elsevier), "Academic OneFile" (Gale), "Asian Digital Library", "DBLP Computer Science Bibliography", "Google Scholar" və digər nüfuzlu elmi bazalarda indeksləşən "Electronic Government" jurnalı e-idarəetmə, e-demokratiya və e-səsvermə sahəsində, o cümlədən insan-kompüter qarşılıqlı əlaqəsi, hökumət xidmətlərində əşyaların interneti, idarəetmədə bulud hesablama tətbiqləri, verilənlər anbarı və "data mining" istiqamətlərində aparılan tədqiqatları əhatə edir.

## Hər saat Yer kürəsində heyvanların üç növü yox olur



Ümumdünya Heyvanlar Günü (World Animal Day) və ya Ümumdünya Heyvanların Müdafiəsi Günü hər il oktyabrın 4-də bütün dünyada qeyd edilir. AZƏRTAC xəbər verir ki, bəşəriyyətin diqqətini planetin qalan sakinlərinin problemlərinə yönəltmək məqsədi güdən Ümumdünya Heyvanların Müdafiəsi Günü təbiətin qorunması hərəkatının tərəfdarlarının 1931-ci ildə Florensiyada (İtaliya) keçirilmiş Beynəlxalq konqresində təsis edilib.

4 oktyabr tarixinin seçilməsi onunla bağlıdır ki, həmin gün heyvanların himayəçisi hesab edilən katolik keşiş Fransiske Assizskinin (1181/1182 - 1226) xatirə günü kimi məşhurdur. Hər il oktyabrın 4-də və ya bu tarixə yaxın günlərin birində əksər ölkələrin kilsələrində Ümumdünya Heyvanlar Gününə həsr edilmiş ibadət mərasimləri keçirilir. Dünyanın bir sıra ölkələrində fəaliyyət göstərən heyvanları müdafiə cəmiyyətləri hər il Ümumdünya Heyvanlar Gününə həsr edilmiş müxtəlif kütləvi tədbirlər və aksiyalar təşkil edirlər.

Ümumdünya Vəhşi Təbiət Fondunun (WWF) məlumatına görə, hər saat Yer kürəsində heyvanların üç növü, hər gün planetin bitki aləminin və faunasının 70 növü yox olur, bitki aləminin və faunanın bütün növlərinin dörddə bir hissəsini yaxın vaxtlarda məhv olmaq təhlükəsi gözləyir. Son iyirmi beş ildə Yer kürəsinin bioloji müxtəlifliyi üçdə bir hissə qədər azalıb.

Ümumdünya Heyvanlar Gününün təsis edilməsinin məqsədi budur ki, beynəlxalq ictimaiyyət ətraf mühitin qorunmasına ehtiyac olmasını dərk etsin, heyvanların müdafiəsi sahəsində fəallıq artsın. Son illərdə dünyanın 60-dan çox ölkəsində Ümumdünya Heyvanlar Gününə həsr edilmiş tədbirlər keçirilir. Bütün dünyada könüllülər və ekoloji təşkilatlar insanların diqqətini heyvanlara amansız münasibət problemlərinə cəlb etməyə çalışırlar. Heyvanların müdafiəsi hərəkatının fəalları heyvan kəsilən müəssisələrdə müzakirələr aparır, fləşmoblar keçirirlər. Ekoloqlar bizi dördayaqlı dostlarımıza humanist münasibət bəsləməyə çağırırlar. Maarifçilik tədbirləri həyata keçirilir: heyvanlar haqqında, kinoloqların və baytarların işi haqqında filmlər nümayiş etdirilir.

## Formula 1 Azərbaycan Qran-Prisinin stüardı Yaponiyaya dəvət olunub



Oktyabrın 5-7-də Yaponiyada Formula 1 üzrə dünya çempionatının növbəti Qran-Pri yarışı keçiriləcək. AZƏRTAC xəbər verir ki, yarışın üçüncü stüardı müəyyənləşib. Cari ilin aprelində Bakıda təşkil olunan Azərbaycan Qran-Prisinin ədalət təmsilçisi Tom Kristensen Yaponiyaya dəvət olunub. İyirmi dörd saatlıq Le-Man yarışlarının doqquzqat qalibi cari mövsüm Azərbaycan ilə yanaşı, Böyük Britaniya Qran-Prisinin də stüardı olub. Yarışda mübahisəli məqamlara T.Kristensen ilə birgə, Beynəlxalq Avtomobil Federasiyasının Apelyasiya Məhkəməsinin üzvü Niş Şetti və Avstraliya Avtoidman Konfederasiyasının sabiq vitse-prezidenti Stiven Çoppinq aydınlıq gətirəcəklər.

## Azərbaycan üzgüçüsü dünya kubokunda iki medal qazanıb



Azərbaycan üzgüçüsü Maksim Şemberev Hollandiyanın Eyndhoven şəhərində keçirilən dünya kubokunun mərhələ yarışında bir qızıl və bir bürünc medal qazanıb. Azərbaycan Üzgüçülük Federasiyasından bildiriblər ki, təmsilçimiz 1500 metr məsafəyə sərbəst üsulla yarışlarda hamını üstələyərək qızıl medala sahib olub. M.Şemberyev 400 metr məsafəyə kompleks üzgüçülükdə isə bürünc medalla kifayətlənib. Hazırda 400 metr məsafəyə üzgüçülük yarışlarında M.Şemberev dünya reytinqində 10-cu, Avropa reytinqində isə 3-cü yerdədir.

## Ronaldo ilin sonuna kimi milliyə çağırılmayacaq



"Yuventus"un futbolçusu Kriştiano Ronaldo bu ilin sonuna qədər Portuqaliya millisinə çağırılmayacaq.Qol.az-ın xarici KİV-lərə istinadən yaydığı xəbərə görə , 33 yaşlı hücumçu bu yay keçdiyi "Yuventus"a daha tez uyğunlaşmaq üçün yığmaya dəvət olunmamağını xahiş edib.

Qeyd edək ki, Portuqaliya millisi bu il Millətlər Liqasında Polşa, Şotlandiya və İtaliya yığmaları ilə qarşılaşacaq.

## Şəhriyar Məmmədyarov URS reytinqində dünya üzrə ilk onluqdadır

URS™ Universal Rating System

1 oktyabr 2018-ci il üçün URS - "Grand chess tour" və Kasparov Fondu tərəfindən təsis edilmiş universal reytinq dərc edilib. Bu reytinqdə klassik şahmat, rapid və blits üzrə bütün yarışlarda çıxışların nəticələri nəzərə alınır.

Reytinq əmsalı 2796 olan Azərbaycan qrossmeysteri Şəhriyar Məmmədyarov dünya üzrə ilk onluqda 4-cü yerdədir. İlk onluqda birinci 3 yeri Norveç nümayəndəsi Maqnus Karlsen (2864), Amerika təmsilçisi Hikaru Nakamura (2809) və fransız Maksim Vaşye-Laqrav (2800) tutur. Azərbaycan şahmatçılarından daha 5 nəfər dünya üzrə ilk yüzlüyə daxildir - Teymur Rəcəbov (2748) - 19-cu, Rauf Məmmədov (2728) - 28-ci, Qədir Hüseynov (2712) - 41-ci, Eltac Səfərli (2701) - 48-ci və Arkadi Naydiç (2692) - 59-cu yerdədir.

## Voleybol millimiz Tailanda uduzdu



Voleybolçu qadınlardan ibarət Azərbaycan milli komandası Yaponiyada davam edən dünya çempionatında bu gün qrup mərhələsinin son oyununu keçirib. Qol.az-ın məlumatına görə, Faiq Qarayevin rəhbərlik etdiyi kollektiv C qrupunun V tur qarşılaşmasında Tailanda uduzub - 1:3 (25:22, 15:25, 25:19, 25:27).

Qeyd edək ki, hər iki komanda növbəti mərhələyə vəsiqəni təmin etdiyi üçün matç formal xarakter daşıyıb. Bu qələbədən sonra xalını 10-a çatdıran Tailand 3-cü sıradakı mövqeyini qoruyub. Azərbaycan isə 6 xalla 4-cü olub. 4 xala malik Cənubi Koreya 5-ci, xal qazana bilməyən Trinidad və Tobaqo isə sonuncu yeri tutub. Turun son görüşü 11 xalla ilk iki pilləni bölüşən Rusiya və ABŞ arasında olacaq.


Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500